HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№24 (614) ■ 28 iyun 2012 www.vergiler.az Qiyməti: 40 qəp.


# Ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir

***İyunun 25-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2012-ci il buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir.***



Prezident İlham Əliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində aparılmış yenidənqurma və maddi-texniki bazanın gücləndirilməsi ilə bağlı görülən işlərlə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, ölkəmizin bütün ali hərbi təhsil müəssisələri ən müasir tələblər səviyyəsində yenidən qurulur, onların maddi-texniki bazası möhkəmləndirilir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də ardıcıl və məqsədyönlü tədbirlərin reallaşdırıldığı, hərbi təhsil müəssisəsində əsaslı abadlıq və yenidənqurma işlərinin görüldüyü diqqətə çatdırılmışdır. Ordu quruculuğunun möhkəmləndirilməsi istiqamətində ulu öndər Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın iqtisadi imkanları artdıqca ölkəmizin Silahlı Qüvvələrinin də maddi-texniki bazasının daha da möhkəmləndirilməsi geniş vüsət alır.

Prezident İlham Əliyevə bu istiqamətdə həyata keçirilən tədbirlər barədə geniş məlumat verilmiş, yeni avadanlıq və silahlar nümayiş etdirilmişdir. Qeyd olunmuşdur ki, hazırda Azərbaycan Silahlı Qüvvələri nəinki regionun, eləcə də dünyanın ən güclü ordularından biri sayılır. Azərbaycan ordusu mütəmadi qaydada ən müasir silah-sursatla təchiz olunur. Ölkənin dövlət büdcəsində hərbi xərclər ildən-ilə artırılır. Azərbaycan Silahlı Qüvvələrinin silah-sursatla təchizatında artıq Müdafiə Sənayesi Nazirliyi də mühüm yer tutur. Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq, bütün sahələrdə olduğu kimi, ordumuzda da yalnız ən son elmi-texniki yeniliklər tətbiq edilir. Bu baxımdan, ölkəmizin ali hərbi məktəblərində də zabitlərin günün tələbləri səviyyəsində hazırlanması üçün yüksək şərait yaradılmışdır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə nitq söyləmişdir: «Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Hərbi xərclər ildən-ilə artır. Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yerdədir. Bu da təbiidir. Bu, belə də olmalıdır. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib... Müharibə şəraitində yaşayan ölkədə birinci növbədə ordu məsələlərinə diqqət göstərilməlidir və Azərbaycanda bu, belədir. Son bir neçə il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır. Hazırda bu xərclər 3,6 milyard dollar səviyyəsindədir. Bu da Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Əlbəttə, bu reallıqları bizim uğurlu iqtisadi siyasətimiz, iqtisadi islahatlarımız yaratmışdır. Ordu xərcləri bundan sonra da artacaqdır. Bu, əlbəttə ki, ordumuzun gücləndirilməsinə böyük dəstəkdir».

sonra xüsusi təyinatlı hərbi məktəblərin tədris və intizamda birinci yerləri tutan və təhsil müəssisələrini fərqlənmə ilə bitirən məzunlara diplomlar təqdim etmişdir. Tədrisdə və intizamda birinci yerləri tutan məzunlar qiymətli hədiyyələrlə təltif olunmuşlar.

# Vergilər Nazirliyinin Tədris Mərkəzi - 10 il

**«Bu Mərkəz bütün yüksək standartlara cavab verir. Mən çox şadam ki, qısa müddət ərzində Vergilər Nazirliyi öz işçiləri və gənc işçilər üçün belə gözəl şərait yaradıbdır. Azərbaycanın gözəl guşəsində, Şamaxı rayonunda belə mənzərəli yerdə ən müasir standartlara cavab verən Tədris Mərkəzi tikilibdir. Bu, gözəl hadisədir və Azərbaycanın ümumi inkişafı ilə bilavasitə bağlı olan məsələdir».**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vergilər Nazirliyinin Tədris Mərkəzinin Şamaxı rayonunda yerləşən yeni binasının açılış mərasimindəki nitqindən*

13 sentyabr 2011-ci il.



Azərbaycan Respublikasının Vergilər Nazirliyi sistemində kadrların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli fərmanına əsasən yaradılmış Tədris Mərkəzində həyata keçirilir. Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Vergilər Nazirliyinin Tədris Mərkəzinin Şamaxı rayonunda tikilmiş yeni kompleksə köçürülməsi qərara alınmışdır. 13 sentyabr 2011-ci ildə Tədris Mərkəzinin Şamaxı rayonunda inşa edilmiş, ən müasir standartlara cavab verən yeni inzibati binası istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Tədris Mərkəzinin yeni inzibati binasının açılış mərasimində iştirak etmişdir.

rəsmi xronika

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 20 illik yubileyi sammitində iştirak etmək üçün Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfərə yola düşmüşdür.

İyunun 26-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Albaniyanın Baş naziri Sali Berişanın görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuş, enerji, sərmayə qoyuluşu və turizm sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğu qeyd edilmişdir.

Həmin gün İstanbuldakı Lütfi Kırdar Beynəlxalq İclas Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə İstanbulda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 20 illik yubiley sammitinin üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə töhfə verəcəyi bildirilmiş, ölkələrimiz arasındakı əlaqələrin bütün sahələr üzrə sürətli inkişafından məmnunluq ifadə olunmuşdur. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Sonra Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 20 illik yubiley sammiti keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir. Sammiti açan Türkiyə Prezidenti Abdullah Gül təşkilatın yaranma tarixindən danışmışdır. Diqqətə çatdırmışdır ki, 20 illik fəaliyyəti dövründə bu qurum üzv ölkələr arasında siyasi və iqtisadi münasibətlərin daha da yaxınlaşmasına yeni imkanlar açmışdır. Abdullah Gül qurumun beynəlxalq iqtisadiyyatda önəmli rolunu qeyd etmişdir. Bildirmişdir ki, təşkilat bölgədə iqtisadi əlaqələrin, o cümlədən üzv ölkələr arasında işbirliyinin genişlənməsinə, özəl sektorun, ticarətin, mədəniyyətin, turizmin inkişafına təkan verir.

Təşkilata sədrlik edən Serbiyanın Prezidenti Tomislav Nikoliç yubiley sammitinin dünyada iqtisadi böhranın hökm sürdüyü bir dövrdə keçirilməsinin önəmindən danışmışdır. O bildirmişdir ki, təşkilatın əsas məqsədi beynəlxalq qurumlarla əlaqələri yüksək səviyyədə qurmaqdır.

Serbiyanın dövlət başçısı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq qurumlar, o cümlədən Avropa İttifaqı və Avropa Komissiyası ilə sıx əlaqələrinin əhəmiyyətinə də toxunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə çıxış etmişdir. Dövlətimizin başçısı təşkilatın yaranma tarixinin Azərbaycanın müstəqillik tarixi ilə üst-üstə düşdüyünü demişdir. «Bu illər ərzində ölkəmiz böyük yol keçib. İqtisadi sahədə Azərbaycanda köklü islahatlar aparılıb və son illər ərzində ölkəmiz qarşısında duran əsas iqtisadi və infrastruktur layihələri müvəffəqiyyətlə icra edib», - deyən Azərbaycan Prezidenti onu da diqqətə çatdırmışdır ki, dünyanın aparıcı reytinq agentlikləri də ölkəmizin bu nailiyyətlərini təsdiqləyir.

Dövlətimizin başçısı bölgədə əməkdaşlığın genişlənməsinə və iqtisadi sahədə əlaqələrin daha da dərinləşməsinə əngəl olan əsas amil kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuş və bildirmişdir ki, münaqişənin həll olunmaması təkcə iqtisadi əməkdaşlığa deyil, bütövlükdə bölgədə sülh və təhlükəsizliyə təhdiddir. Sammitdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan digər ölkələrin dövlət və hökumət başçıları da çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 26-da Dolmabaxça sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuşdur.

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinin Avropanın enerji təhlükəsizliyinə, o cümlədən ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinin vurğulandığı görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.


2 Nağdsız ödənişlər müasir dövrün çağırışıdır

3 Tədris Mərkəzi regionda ən müasir infrastruktura malik obyektlərdəndir

4 Region üçün təcrübə və bilik mənbəyi

6 Kadr potensialının gücləndirilməsində Tədris Mərkəzinin mühüm rolu var

# İnkişafın yeni mərhələsi və perspektivlər

Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

İnsan kapitalı inkişaf etmiş kapital bazarları şəraitində tərəqqi və rəqabət qabiliyyətliliyinin ən yüksək resursudur. İnsan kapitalı müasir istehsal kapitalının elə vacib hissəsidir ki, insana xas olan, onun intellektual və yaradıcı potensialı ilə ifadə edilən zəngin bilik və bacarıq ehtiyatları şəklində mövcud olur. İnsan kapitalının mövcud olmasının və inkişaf etdirilməsinin əsas amili investisiyalardır. İnsan kapitalına investisiyalar - təhsilə və təlimə qoyulan sərmayələr şəklində reallaşır.

Respublikamızda insan resurslarının inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. O, bütün sahələrdə inkişafın təməlində elmin durduğunu qeyd edir və Azərbaycanın işıqlı gələcəyi naminə elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərirdi.

Məhz bu yanaşmadan irəli gələrək, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Nazirlər Kabinetinə Vergilər Nazirliyinin Tədris Mərkəzinin yaradılması üçün zəruri tədbirlərin görülməsi tapşırılmış, fərmanın icrası ilə əlaqədar Nazirlər Kabinetinin qərarı ilə Vergilər Nazirliyinin Tədris Mərkəzi yaradılmış, Mərkəzin Əsasnaməsi və strukturu təsdiq edilmişdir.

Tədris Mərkəzinin yaranmasından keçən dövr ərzində vergi orqanlarında insan resurslarının inkişafı konsepsiyası təsdiq olunmuş, bu təhsil müəssisəsində əməkdaşların ixtisas səviyyəsinin yüksəldilməsi və kadrların yenidən hazırlanması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şamaxı rayonunda Vergilər Nazirliyinin yeni Tədris Mərkəzinin açılışı kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, əməkdaşların bilik və bacarıqlarının artırılması işinin beynəlxalq standartlara uyğun təşkil edilməsi istiqamətində inkişafın yeni mərhələsinin başlanğıcı oldu.

Tədris Mərkəzinin Şamaxı rayonuna köçməsi ilə Mərkəzdə tətbiq edilən kombinə edilmiş təhsil sistemində məsafədən tədrisin əhəmiyyəti daha da artdı. Hazırda bir çox ölkələrdə ənənəvi tədris sistemindən distant təhsil sisteminə keçilməsinə üstünlük verilir. Bu təcrübəyə əsaslanaraq, Azərbaycanda da distant təhsilin tətbiqi meyli əhəmiyyətli dərəcədə inkişaf edir və distant təhsil dövlət qulluqçularının ixtisasının artırılmasını nəzərdə tutaraq, «Elektron hökumət» proqramının mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Tədris Mərkəzinin bilik və bacarıqların modernləşmə prosesinin daimi xarakter daşımasına xidmət etməsi üçün hazırda tətbiq olunan mühazirə sistemi ilə yanaşı, treninqlərin və digər interaktiv dərs formalarının həm kəmiyyət, həm də keyfiyyət baxımından artırılmasına ehtiyac yaranır. İndi tədris prosesində interaktivliyin rolu artır və treninq zamanı slaydlardan istifadə edilməsi, kurrikuliumların tərtib edilməsi heç də günümüzün tələbini tam ödəmir. Daha müasir tədris resurslarından istifadə etməklə təlim proqramının standartlaşdırılması məqsədi ilə müxtəlif elektron dərs vəsaitlərinin yaradılması, videokursların, təlim videoçarxlarının çəkilməsi, onları Mərkəzin portalında yerləşdirərək məsafədən təhsilin imkanlarının artırılması və digər real vaxt (onlayn) rejimli tədris tədbirlərinin keçirilməsi reallaşdırılmalıdır.



Tədris Mərkəzinin əsas məqsədi əməkdaşın cəmiyyətdə hərtərəfli şəxsiyyət kimi formalaşması və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində məqsədyönlü fəaliyyəti təşkil etmək, həm kurs və treninqlər keçirməklə əməkdaşların vergi sahəsində peşəkarlıq səviyyəsini artırmaq, həm də işçilərə iş vaxtından daha səmərəli istifadə edilməsini öyrətmək, əməkdaşlar arasında loyal münasibətlər formalaşdırmaq, vergi inzibatçılığı proseslərinin yüksək səviyyədə həyata keçirilməsini təmin etməkdir.

Təlimləri günün tələbinə uyğunlaşdırmaq üçün gələcəkdə «Altı Siqma», «Əməliyyat idarəetməsi», «Biznes analiz», «İnsan resurslarının idarə edilməsi» təlimlərini aparmaq məqsədəuyğundur. Bu təlimlərdə bilik səviyyəsinin yüksəldilməsi ilə yanaşı, şəxsi keyfiyyətlərin və bacarıqların inkişaf etdirilməsi də əhatə olunacaq. Buna «Liderlik», «Kommunikasiya bacarıqları», «Tənqidi düşüncə», «Biliklərin idarə edilməsi», «Layihələrin idarə edilməsi», «Vaxtın səmərəli idarə edilməsi», «Konfliktlərin həll edilməsi», «Stres menecment», «Danışıqların aparılması» təlimlərini aid etmək olar.

Bəzi təlimlər ümumi olaraq bütün əməkdaşlar üçün faydalı olur, digərləri isə fokus qruplar üçün nəzərdə tutulur. Bu, xüsusilə şəxsi keyfiyyət və bacarıqların artırılmasına istiqamətlənən təlimlərə aiddir. Məsələn, vaxtın səmərəli idarə edilməsi təlimi hər bir əməkdaş üçün fayda kəsb edir, lakin «Danışıqların aparılması», «Konfliktin həll edilməsi» və «Stres menecment» treninqləri birbaşa vergi ödəyiciləri ilə ünsiyyətdə olan əməkdaşlar üçün gərəklidir. «Liderlik» və «İnsan resurslarının idarə edilməsi» təlimləri isə rəhbər vəzifəli şəxslər üçün faydalı olacaq.

Gələcəkdə Tədris Mərkəzinin fəaliyyətinin genişləndirilməsi üçün biznes işinin təşkili mövzusunda təlim proqramlarının reallaşdırılması, vergi işçilərinin iştirakı ilə maarifləndirici aksiyaların təşkili, sahibkarların informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklərinin artırılmasına yardım edilməsi, sahibkarların peşə biliklərinə marağının və regionda məşğulluğun artırılmasına kömək məqsədilə peşə kurslarının təşkili kimi tədbirlər həyata keçirmək səmərəli nəticələr verə bilər. Hazırkı Tədris Mərkəzinin gələcəkdə regionda Beynəlxalq Təlim-Tədris Mərkəzinə çevrilərək əhalinin və iqtisadi subyektlərin maarifləndirilməsinə, həmçinin cəmiyyətdə vergi mədəniyyətinin inkişaf etdirilməsinə xidmət etmək imkanı var.

# Nağdsız ödənişlər müasir dövrün çağırışıdır

*İyun ayının 20-21-də Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində «Nağdsız ödənişlərin həcminin artırılması və POS-terminallardan istifadənin genişləndirilməsi» mövzusunda seminar keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin və Mərkəzi Bankın rəhbər vəzifəli şəxsləri, respublikada fəaliyyət göstərən kommersiya banklarının, prosessinq mərkəzlərinin mütəxəssisləri, həmçinin biznes strukturlarının, ictimai təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.*



**Nağdsız ödənişlərin həcmi artır**

Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Aysu Məmmədova tədbiri açaraq nazirliyin insan resurslarının inkişafı strategiyasının həyata keçirilməsində mühüm rol oynayan bu təhsil ocağının fəaliyyəti barədə ətraflı məlumat vermişdir: «2011-ci ildən Şamaxı rayonundakı yeni inzibati binada fəaliyyət göstərən mərkəzin tədris strategiyasının başlıca məqsədi vergi xidməti əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və ixtisaslarının artırılması, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasıdır».

Son illər ölkədə nağdsız ödənişlərin həcminin artdığını, alqı-satqı əməliyyatları üzrə hesablaşmalarda plastik kartlardan istifadənin miqyasının genişləndiyini bildirən Aysu Məmmədova vurğulamışdır ki, hökumətin bu istiqamətdə həyata keçirdiyi tədbirlər bütövlükdə vətəndaşların elektron ödəniş sistemlərinə çıxış imkanlarının asanlaşdırılmasına, maarifləndirmə tədbirlərinin genişləndirilməsinə xidmət edir. Bu məqsədlə Vergilər Nazirliyi və digər dövlət qurumlarının nümayəndələrinin iştirakilə yaradılmış xüsusi işçi komissiya nağdsız ödəniş sistemlərinin beynəlxalq standartlar səviyyəsinə çatdırılması, bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, ticarət və xidmət obyektlərində plastik kartlar vasitəsilə ödəniş səviyyəsinin artırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirmişdir.

**ÜDM-də nağdsız dövriyyənin həcmi 7%-ə yüksəlib**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi, AMEA-nın müxbir üzvü, professor Akif Musayev «Azərbaycan Respublikasında dövriyyədə olan nağd pul kütləsinin məhdudlaşdırılmasını zəruri edən amillər» mövzusunda təqdimatında nağdsız pul dövriyyəsinin artırılması sahəsində həyata keçirilən qanunverici-inzibati islahatlar barədə məlumat vermişdir. Onun sözlərinə görə, 1998-ci ildə hazırlanmış xüsusi strategiya əsasında müasir proqram təminatlarına əsaslanan Milli Ödəniş Sistemi yaradılmış, 2001-ci ildə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZIPS), 2002-ci ildə isə Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) istifadəyə verilmişdir: «Hər iki sistemin istismara verilməsi nəticəsində banklar arasında hesablaşmaların real vaxt rejimində həyata keçirilməsinə, pul dövriyyəsinin sürətinin nəzərəçarpacaq dərəcədə artmasına, banklar tərəfindən likvidliyin daha çevik idarə olunmasına imkan yaranmışdır. Beləliklə, kiçik həcmli, lakin daim təkrarlanan xırda ödənişlərin (əməkhaqqı, sosial müdafiə ödənişləri, telefon, qaz, su, elektrik enerjisi üzrə kommunal ödənişlər və s.) elektron daşıyıcılar əsasında həyata keçirilməsinə, eyni zamanda xırda ödənişlərin əsas iştirakçıları olan kommunal xidməti müəssisələrinin, böyük sayda ödəniş əməliyyatları aparan hökumət qurumlarının milli ödəniş sisteminin infrastrukturuna inteqrasiyası üçün əlverişli zəmin yaradılmışdır».

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı» çərçivəsində həyata keçirilmiş tədbirlərə toxunan A.Musayev əlavə etmişdir ki, proqram çərçivəsində mühüm nailiyyətlərdən biri də 2008-ci ildə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (KÖMİS) yaradılmasıdır: «Ən müasir texnologiya və proqram təminatına əsaslanan bu sistemin istifadəyə verilməsi ilə abonentlərə istənilən ödəniş xidməti nöqtəsində kommunal xidməti borcları haqqında tam informasiya almaq, bütün ödəniş mexanizmləri vasitəsilə ödəniş aparmaq imkanı yaradılmışdır. Ümumiyyətlə, Dövlət Proqramının icrasına başlanılmasından ötən dövr ərzində Milli Ödəniş Sistemində iştirak edən bankların sayı 44-ə, onların filial və şöbələrinin sayı isə 827-yə çatmışdır. Bütövlükdə həmin banklar tərəfindən quraşdırılmış bankomatların sayı 2006-cı ilə nisbətən 2,7 dəfə artaraq 2168-ə, POS-terminalların sayı isə 21 dəfədən çox artaraq 33.568-ə çatmışdır. POS-terminalların 32 mindən çoxu obyektlərdə, 1000-ə yaxını taksilərdə quraşdırılmışdır. Ümumilikdə 4 kart sistemi - «AzəriKart», «MilliKart», «KapitalKart» və «TexKart» vasitəsilə dövriyyəyə 4,58 milyon kart buraxılmışdır. Bunlardan 2,55 milyonu sosial ödəniş kartı, 1,33 milyonu maaş kartı, 0,18 milyonu kredit kartı, 0,55 milyonu digər təyinatlı kartlardır. 2005-2011-ci illərdə ümumi pul kütləsində nağdsız dövriyyənin həcmi 13,5%-dən 27,6%-ə yüksəlmişdir. Həmin dövrdə ümumi daxili məhsulda nağdsız dövriyyənin həcmi 2%-dən 7%-ə yüksəlmişdir».

Təqdimatında nağdsız ödənişlərin stimullaşdırılması, nağd dövriyyənin həcminin məhdudlaşdırılması, əhalinin bu sahədə maarifləndirilməsi və digər aktual məsələlərlə bağlı mülahizələrini açıqlayan A.Musayev ölkənin kütləvi informasiya vasitələrini maarifləndirmə prosesində fəal iştirak etməyə çağırmışdır.

**Hökumət Ödəniş Portalı geniş imkanlar açır**

«Hökumət Ödənişlər Portalı: görülmüş işlər və perspektivlər» mövzusunda təqdimatında Mərkəzi Bankın nağdsız ödənişlərin genişləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər haqqında məlumat verən Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlı bildirmişdir ki, milli ödəniş sisteminin fəal inkişaf dövrü 2000-ci ildən sonrakı mərhələyə təsadüf edir və bu istiqamətdə ən böyük layihələrdən biri AZIPS sisteminin yaradılmasıdır: «Buna qədər Azərbaycanda banklararası hesablaşmalar kağız daşıyıcılar vasitəsilə həyata keçirilir, bir bankdan digərinə müştəri ödənişləri təxminən 3-5 gün ərzində gerçəkləşirdi. 2001-ci ildə AZIPS-in fəaliyyətə başlamasından sonra isə banklar arasındakı əməliyyatlar cəmi 30-60 dəqiqəyə başa çatır. Bu sistem Ümumdünya Banklararası Maliyyə telekommunikasiya sistemi platformasında yaradılmışdır. MDB məkanında Azərbaycan yeganə ölkədir ki, milli ödəniş sistemini bu sistem (S.W.I.F.T) üzərində aparır. Bundan sonrakı mərhələdə isə xırda və daim təkrarlanan ödənişlərin emalı üzrə xüsusi ödəniş sistemi - Xırda Ödənişlər üzrə Hesablama Kliring Sistemi (XÖHKS) yaradılmışdır. Beləliklə, respublikada beynəlxalq səviyyədə ödəniş sistemlərinin əsas komponentləri fəaliyyətə başlamışdır».

Mərkəzi Bankın milli ödəniş sisteminin inkişafını nəzərdə tutan müvafiq Dövlət Proqramı çərçivəsində gerçəkləşdirdiyi digər tədbirlər barədə məlumat verən Vahid Qurbanlı «Milli kart» prosessinq mərkəzinin yaradılmasının kart bazarının inkişafı baxımından əhəmiyyətini xüsusi vurğulamışdır. Qeyd olunmuşdur ki, Mərkəzi Bankın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə həyata keçirdiyi layihə əsasında «Azərpoçt» Məhdud Məsuliyyətli Cəmiyyətinin informasiya infrastrukturu tamamilə müasirləşdirilmiş, təşkilat Milli Ödəniş Sisteminə inteqrasiya olunaraq maliyyə-bank xidmətləri göstərməyə başlamışdır.

2011-ci ildə www.apus.az Hökumət Ödəniş Portalının (HÖP) yaradılmasını nağdsız ödənişlərin həcminin artırılması sahəsində reallaşdırılmış mühüm layihələrdən biri kimi qiymətləndirən Mərkəzi Bank nümayəndəsi vurğulamışdır ki, ötən il ərzində həmin sistem vasitəsilə həyata keçirilmiş orta günlük ödənişlərin sayı 64 min, həcmi 1,05 milyon manat olmuşdur. HÖP vasitəsilə vergi və gömrük rüsumlarını, icarə haqlarını, inzibati cərimələri və digər ödənişləri real vaxt rejimində elektron formada ödəmək mümkündür.

Təqdimatda, həmçinin, Hökumət Ödəniş Portalının iştirakçı təşkilatlar və ödəyicilər üçün üstünlükləri, eyni zamanda nağdsız ödənişlərin həcminin artırılması sahəsində qarşıda duran vəzifələr diqqətə çatdırılmışdır.

**Stimullaşdırıcı layihələr həyata keçirilir**

«Milli kart» MMC-nin Əməliyyat şöbəsinin rəisi İlqar İbrahimov «Nağdsız ödənişlərin həcminin artırılmasında prosessinq mərkəzlərinin rolu» mövzusunda təqdimatında təmsil etdiyi prosessinq mərkəzinin yaranması, strukturlaşması və fəaliyyəti barədə məlumat vermiş, kart bazarının inkişafında mərkəzin xidmətlərindən söz açmışdır. Ölkədə nağdsız ödənişlərin həcminin artması və POS-terminalların quraşdırılması sahəsində Vergilər Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirən İlqar İbrahimov demişdir: «Hazırda şirkət bankomatlarla, o cümlədən POS-terminallarla nağd və nağdsız əməliyyatların həyata keçirilməsi, kartların hazırlanması ilə yanaşı, elektron ticarət sahəsində də müəyyən xidmətlər göstərir. «Milli kart», həmçinin, «İnternet banking», «Card to card», «PIN change», «SMS banking» kimi modern xidmətləri də həyata keçirir. 2012-ci il may ayının 1-dək şirkətin aktiv kartlarının sayı 180 min, bankomatlarının sayı 320, POS-terminallarının sayı 6000 min olmuşdur. Yanvar ayında POS-terminallarla 3547 əməliyyat aparıldığı halda, may ayında bu göstərici 6000-ə çatmışdır».

Təqdimatda nağdsız ödənişlərin pərakəndə ticarət, iaşə və xidmət müəssisələri, habelə kart müştəriləri üçün üstünlüklərinə toxunulmuş, eləcə də şirkətin həyata keçirdiyi stimullaşdırıcı layihələr və perspektiv planlar açıqlanmışdır.

**Elektron formada vergi ödənişlərinin həcmi artır**

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi İlqar Xəlilov «Vergi və rüsumların nağdsız formada ödənilməsi» mövzusunda təqdimatında elektron ödənişlər sahəsində aparılan islahatlar barədə məlumat vermişdir:

*davamı 4-cü səhifədə*

# «Tədris Mərkəzi regionda ən müasir infrastruktura malik obyektlərdəndir»

**«AtaBank» ASC-nin bank kartları departamentinin direktor müavini Kamran Şıxəliyev** bildirmişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzi son illərdə regionda inşa olunan ən müasir infrastruktura malik tikililərdəndir. Onun fikrincə, Mərkəzdə Vergilər Nazirliyi əməkdaşlarının tədrisi və ixtisaslarını artırması, işgüzar dairələrin iştirakilə faydalı müzakirələrin aparılması üçün hər cür şərait var: «Belə bir məkanda təşkil olunan seminarın əhəmiyyəti yüksəkdir. Açığı, region şəraitində geniş imkanlara, iş şəraitinə malik Tədris Mərkəzinin mövcud olduğunu təsəvvür etmirdik. Tədris Mərkəzinin maddi-texniki bazası və infrastrukturu yüksək səviyyədədir. Burada nazirlik əməkdaşlarının tədrisi və peşə hazırlığının yüksəldilməsi üçün lazımi şərait yaradılıb. Tədris Mərkəzi ümumilikdə regionun inkişafı baxımından da faydalıdır».



Kamran Şıxəliyev nağdsız ödənişlər mövzusunda seminarın təşkili ilə bağlı demişdir ki, əhalinin bu sahədə maarifləndirilməsi qarşıda duran vacib vəzifələrdən biridir. Onun fikrincə, maarifləndirmə tədbirlərini yalnız Vergilər Nazirliyi, Mərkəzi Bank və digər dövlət qurumlarından, eləcə də kommersiya banklarından gözləmək düzgün olmazdı: «Fikrimcə, POS-terminallardan istifadənin genişləndirilməsi sahəsində Vergilər Nazirliyi və aidiyyəti qurumların həyata keçirdiyi tədbirlərin əhəmiyyəti əvəzsizdir. Lakin fikrimizcə, əhalinin lazımi səviyyədə məlumatlandırılması üçün kütləvi informasiya vasitələrinin əməkdaşları və qeyri-hökumət təşkilatları da yaxından iştirak etməlidirlər. Nağdsız ödənişlərin faydalı cəhətlərinin təbliği ilə yanaşı, həvəsləndirici tədbirlər də diqqət mərkəzində olmalıdır. «AtaBank» bu məqsədlə 2011-ci ilin dekabrından «Nağdsız ödə, nağd qazan!» stimullaşdırıcı kampaniya keçirir. Son aylarda bank 10 minə yaxın ticarət, xidmət və iaşə müəssisəsində POS-terminallar quraşdırılmışdır. Bu POS-terminallar təkcə Bakı şəhərini deyil, respublika regionlarını da əhatə edir. Eyni zamanda, POS-terminallardan istifadəyə görə «AtaBank» ən minimal faiz dərəcəsi müəyyənləşdirib».

# «Tədris Mərkəzi faydalı müzakirələr üçün əlverişli məkandır»

**«Kapital Bank»ın lisenziya şöbəsinin aparıcı mütəxəssisi Ramil Məcidov** Tədris Mərkəzinin təlim-tədris sahəsindəki uğurlarını kütləvi informasiya vasitələrindən yaxından izlədiyini bildirmişdir. O vurğulamışdır ki, 2011-ci ildə Şamaxı rayonunda müasir iş şəraitinə və infrastruktura malik belə bir mərkəzin inşa olunması regionların inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir: «Şamaxının səfalı bir məkanında yerləşən Tədris Mərkəzində ilk dəfə oluram və buradakı mükəmməl infrastruktur, iş şəraiti, təlim-tədris prosesi barədə təəssüratlarım olduqca müsbətdir. Mərkəzin 10 illiyi münasibətilə Vergilər Nazirliyinin bütün əməkdaşlarını təbrik edirəm. Bu cür mərkəzlərin regionlarda fəaliyyət göstərməsi həm də respublikanın işgüzar dairələrinin Bakıdan kənarda yaxından tanış olaraq səmərəli müzakirələr aparmasına, qarşılıqlı faydalı əlaqələr qurmasına imkan yaradır. Tədris Mərkəzi faydalı müzakirələr üçün əlverişli məkandır».



Vergilər Nazirliyinin təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarının aparıcı mütəxəssislərin, müstəqil ekspertlərin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakilə «Nağdsız ödənişlərin həcminin artırılması və POS-terminallardan istifadənin genişləndirilməsi» mövzusunda seminarın təşkilini müsbət qiymətləndirən Ramil Məcidov əlavə etmişdir ki, bu cür tədbirlər respublikada nağdsız ödənişlərin təşviqi və əhalinin maarifləndirilməsi baxımından zəruridir: «Son vaxtlar ölkədə nağdsız ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin həcminin artırılması, eyni zamanda elektron xidmətlərin təşkili sahəsində həyata keçirilən tədbirlər daha da genişlənmişdir. Xüsusilə, Vergilər Nazirliyinin bu sahədəki fəaliyyətini olduqca yüksək dəyərləndiririk. Nazirliyin təşkilatçılığı ilə keçirilən seminarda kifayət qədər səmərəli müzakirələr aparıldı, nağdsız ödəniş sisteminin ümumi mənzərəsi barədə təsəvvürlər daha da genişləndi. Ayrı-ayrı dövlət qurumlarının, prosessinq mərkəzlərinin, bankların nümayəndələri nağdsız dövriyyənin genişləndirilməsi məqsədilə planlaşdırdıqları layihələr barədə məlumat verdilər. Mən də «Kapital Bank»ın nağdsız ödənişlərin stimullaşdırılması sahəsində həyata keçirdiyi çoxsaylı layihələr barədə ətraflı məlumat verdim».

# «Nağdsız ödənişlər vergi daxilolmalarının həcmini artıracaq»



**Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) qanunvericilik və siyasi məsələlər üzrə koordinatoru Şahid Şükürov** qeyd etmişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzində nağdsız ödənişlərin həcminin artırılması və POS-terminallardan istifadə məsələlərinə həsr olunmuş seminarın təşkili bu sahədə həyata keçirilən tədbirlərin obyektiv qiymətləndirilməsi və qarşıda duran vəzifələrin müzakirəsi baxımından faydalıdır. O bildirmişdir ki, son vaxtlar ölkə rəhbərliyi səviyyəsində həyata keçirilən sistemli tədbirlər Azərbaycanda nağdsız dövriyyənin həcminin artmasına imkan yaratmışdır: «Ölkə başçısının bu sahədə verdiyi göstərişlər, imzaladığı fərman və sərəncamlar Vergilər Nazirliyi, Mərkəzi Bank və digər dövlət qurumları tərəfindən lazımi səviyyədə icra olunur. Ümumilikdə, hökumətin bu sahədə fəaliyyəti təqdirəlayiqdir. Bununla yanaşı, hesab edirəm ki, gələcəkdə nağdsız dövriyyənin həcminin genişləndirilməsi üçün qanunvericilikdə müəyyən dəyişikliklər də aparılmalıdır. Məsələn, nağd ödənişlər üçün hansısa məhdudlaşdırıcı həddin müəyyənləşdirilməsi vacib addımlardan biridir. Ümumilikdə, nağdsız dövriyyənin həcminin artırılması üçün həm administrativ, həm də maarifləndirici tədbirlərin həyata keçirilməsi zəruridir».

AMCHAM təmsilçisi onu da qeyd etmişdir ki, quruma üzv olan 240-dək şirkət və müəssisə nağdsız ödənişlərdən fəal surətdə istifadə edir: «AMCHAM POS-terminallardan istifanin təşviqi ilə bağlı bir sıra tədbirlər həyata keçirmək niyyətindədir».

# «Ölkənin kart bazarının ildən-ilə daha sürətli inkişafının şahidi oluruq»

**«Milli kart» MMC-nin əməliyyat şöbəsinin rəisi İlqar İbrahimov** Tədris Mərkəzində respublika əhəmiyyətli iqtisadi mövzulara həsr olunmuş konfrans və seminarların təşkilini, fəal müzakirələrin aparılmasını təqdir etmişdir. Onun fikrincə, bu cür tədbirlərin təşkili müxtəlif dövlət qurumları, kommersiya strukturları və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri arasında əlaqələrin genişləndirilməsinə ciddi dəstəkdir.



Ölkənin kart bazarının sürətlə inkişaf etməsini, nağdsız dövriyyənin həcminin genişlənməsini müsbət tendensiya kimi dəyərləndirən İlqar İbrahimov çalışdığı prosessinq şirkətinin 2005-ci ildən bu sahədə həyata keçirdiyi layihələr barədə də məlumat vermişdir. Bildirmişdir ki, hazırda 11 kommersiya bankı və 1 sığorta şirkətinə xidmət göstərən şirkət nağdsız ödənişlərin inkişafı ilə bağlı xüsusi fəaliyyət strategiyasına malikdir: «Biz müştərilərimiz üçün xüsusi bonus proqramları həyata keçiririk. Alış-veriş zamanı nağdsız ödənişlərdən istifadə edən müştərilər topladıqları bonuslara görə müxtəlif hədiyyələr qazanırlar. Hazırda 2 bank «Milli kart» MMC-nin təklif etdiyi bu layihəyə qoşulub. Ümumiyyətlə, müsbət tendensiya odur ki, ölkənin kart bazarının ildən-ilə daha sürətli inkişafının şahidi oluruq. Vergilər Nazirliyinin və Mərkəzi Bankın dəstəyi ilə inkişaf edən nağdsız ödəniş sistemləri bankların da marağındadır. Müxtəlif ödəniş kartlarına malik vətəndaşların sayının çoxalması bankların işgüzar fəallığına müsbət təsir göstərir. Bununla yanaşı, elektron ticarətin genişləndirilməsi üçün də müəyyən layihələr həyata keçiririk».

İlqar İbrahimov hesab edir ki, vətəndaşların nağdsız ödəniş sisteminə etimadının gücləndirilməsi plastik kartlardan istifadə vərdişlərinin yaranması baxımından vacib şərtlərdəndir: «Milli kart» bu addımlardan biri kimi müştərilərinə «SMS-bankinq» xidmətini təklif edir. Yəni kartla aparılan istənilən əməliyyat barədə onun sahibinin mobil telefonuna qısa mesaj göndərilir. Beləliklə, kart sahibi öz iradəsindən kənar əməliyyatlar barədə dərhal xəbər tuta bilir ki, bu da təhlükəsizlik baxımından vacib addımdır. Şirkət elektron ticarət zamanı kart əməliyyatlarının məxfiliyinin təmin edilməsi üçün beynəlxalq səviyyədə tətbiq olunan üçüncü nəsil təhlükəsizlik sistemlərindən istifadə edir».

# «Milli ödəniş sistemləri sürətlə inkişaf edir»

**Mərkəzi Bankın ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlının** fikrincə, nağdsız ödənişlər hər bir ölkənin dinamik iqtisadi inkişafının əsas göstəricilərindəndir: «Son illər Azərbaycanda ümumi daxili məhsulun artımı ölkədə nağdsız pul dövriyyəsinin həcminin artmasını təmin etmiş, elektron ticarətin genişlənməsini stimullaşdırmışdır. Ölkə başçısının imzaladığı fərman və sərəncamların icrası nəticəsində bir sıra yeni ödəniş sistemləri yaradılmış, Mərkəzi Bank və Vergilər Nazirliyi bu istiqamətdə mühüm layihələr həyata keçirmişlər. Nağdsız ödənişlərin həcminin artırılması sahəsində mühüm tədbirlərdən biri də bu sahədə müasir infrastrukturun yaradılmasıdır. Deyə bilərik ki, artıq Azərbaycanda nağdsız ödənişlərin həyata keçirilməsi üçün modern sistemlər fəaliyyət göstərir və onların



təhlükəsizliyi yüksək səviyyədə qorunur. Mərkəzi Bank və Vergilər Nazirliyinin həyata keçirdikləri birgə tədbirlər nəticəsində vətəndaşların həm POS-terminallar vasitəsilə, həm də internet üzərindən nağdsız ödənişlərə marağı artır. Son illər milli ödəniş sistemləri ilə həyata keçirilən əməliyyatların həcminin artım dinamikası da bu tədbirlərin əməli nəticələr verdiyini söyləməyə ciddi əsaslar verir».

# «İnternet üzərindən nağdsız ödənişlərin həcmi artır»

**«Qolden Pay» şirkətinin təsisçisi Fərid İsmayılzadə** hesab edir ki, Vergilər Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən seminar, ilk növbədə, informasiya və təcrübə mübadiləsi baxımından əhəmiyyətlidir: «Müasir dövrdə informasiya, məlumat və biliklərin mübadiləsi iqtisadi sahədə çalışan hər bir şəxs üçün son dərəcə vacibdir. Bu baxımdan, Tədris Mərkəzində nağdsız ödənişlərin həcminin artırılması mövzusunda seminarın keçirilməsi, əsasən, yeni informasiyaların mübadiləsi üçün vacibdir. Tədbirdə iştirak edənlərin hər biri öz sahəsində peşəkar insanlar olduğu üçün onların açıqladığı məlumatlar ictimaiyyət tərəfindən də maraqla qarşılanır. Bu mənada, Vergilər Nazirliyinin təşkilatçılığı ilə belə bir mötəbər tədbirin keçirilməsini yüksək dəyərləndirirəm».



Fərid İsmayılzadə son vaxtlar ölkədə həyata keçirilən təşkilati tədbirlər nəticəsində ölkə vətəndaşlarının internet üzərindən ödəmələrə marağının artdığını, elektron ticarətə imkan yaradan çoxsaylı internet portallarının yaradıldığını vurğulamışdır. O qeyd etmişdir ki, nağdsız ödənişlərin həcminin genişləndirilməsi tədbirləri təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə, korporativ sektorda şəffaflığın artırılmasına, vergidən yayınma hallarının aradan qaldırılmasına, dövlət müəssisə və təşkilatları tərəfindən pul vəsaitlərinin daha səmərəli istifadəsinə xidmət edir. «Qolden Pay» şirkətinin internet üzərindən nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən söz açan Fərid İsmayılzadə bildirmişdir ki, bu məqsədlə yaradılmış «www.hesab.az» portalının yaxın perspektivdə daha da təkmilləşdirilməsi nəzərdə tutulur: «Hesab edirik ki, həyata keçirilən tədbirlər nəticəsində nağdsız dövriyyənin həcmi sürətlə artır. Bu baxımdan, mən Vergilər Nazirliyinin istər təşkilati-texniki, istərsə də maarifləndirmə-təbliğat sahəsində həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirirəm. Şəxsən mən özüm də nağdsız ödənişlərdən geniş istifadə edirəm».

# «QHT-lər əhali arasında maarifləndirmə işini gücləndirməlidir»



**Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev** demişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyəti təkcə vergi xidməti əməkdaşlarının peşə hazırlığının artırılması deyil, işgüzar dairələrin bir araya gətirilməsi baxımından da əhəmiyyətlidir: «Tədris Mərkəzində təşkil olunmuş seminar ölkədə nağdsız dövriyyənin həcminin artırılması sahəsində qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və bəzi çətinliklərin aradan qaldırılması baxımından son dərəcə vacibdir. Bu gün burada qaldırılan məsələlər olduqca aktualdır. Çünki nağdsız ödənişlərin inkişafı hökumət üçün prioritet məsələlərdən biridir. Məqsəd, ilk növbədə, ölkədə vergidən yayınma hallarının qarşısını almaq, vergitutma bazasını genişləndirmək, vergi yığımı sahəsində vəziyyətin optimallaşdırılmasını təmin etməkdir. Hesab edirəm ki, prosesi sürətləndirmək üçün vacib məsələlərdən biri də QHT-lərin əhali arasında maarifləndirmə işini gücləndirməsidir».

Samir Əliyev əlavə etmişdir ki, nağdsız ödənişlərin təbliği məqsədilə aidiyyəti dövlət qurumları ilə yanaşı, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları da fəal iş aparmalıdırlar: «Seminarın keçirilməsində əsas məqsəd də dövlət qurumları, prosessinq mərkəzləri və qeyri-hökumət təşkilatlarının bu sahədəki səylərini artırmaqdır. Vətəndaş cəmiyyəti qurumlarının isə əsas vəzifəsi xarici ölkələrin təcrübəsini öyrənmək və hökumətə səmərəli təkliflər verməkdir».

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2003-cü ildən cari ilin 6 ayı ərzində Tədris Mərkəzində ənənəvi (auditoriyada) təlim metodu tətbiq etməklə orta hesabla **1383** nəfər, kombinə edilmiş təlim metodu tətbiq etməklə **264** nəfər, real vaxt rejimində məsafədən (distant) təlim metodu tətbiq etməklə 18 nəfər dinləyici ixtisasartırma kurslarında iştirak etmişdir.
- 2003-cü ildən indiyədək Tədris Mərkəzində **95** ixtisasartırma kursu, **38** ilkin hazırlıq kursu və **90** qısamüddətli (1-5 günlük) treninqlər və seminar-məşğələlər keçirilmişdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Kadrların işə qəbulu

## Dövlət vergi orqanlarına işə qəbul üçün hansı şərtlər tələb olunur?

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin (Xidmət haqqında Əsasnamə) 8-ci maddəsinə əsasən, vergi orqanlarına xidmətə qəbul «Dövlət qulluğu haqqında» Qanunla və «Xidmət haqqında Əsasnamə»yə uyğun olaraq aparılır. Əsasnamənin 7-ci bəndində qeyd olunur ki, irqindən, milliyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dini mənsubiyyətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşlarının vergi orqanlarında xidmət etmək hüququ vardır. Bir qayda olaraq, vergi orqanlarında işə ali təhsili olan, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada yaşı 35-i keçməmiş vətəndaşlar qəbul edilirlər.

«Xidmət haqqında Əsasnamə»nin 9-cu bəndinə müvafiq olaraq, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında işə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyəti və ya fəaliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə qəbul edilmirlər.

«Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin (bundan sonra - Əsasnamə) 1-ci bəndinə əsasən, dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən hər bir namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, vergi orqanlarında xidmətə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində, şəffaflıq əsasında müsabiqə keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Müsabiqəyə Əsasnamənin tələblərinə uyğun gələn Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar. Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün müsabiqədə iştirak etmək istəyən vətəndaşlar ərizə ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət edirlər.

Əsasnamənin 2-ci bəndinə əsasən, müsabiqə ilə bağlı təşkilati məsələlərin həlli və müsahibənin keçirilməsi üçün Vergilər Nazirliyi tərəfindən 9 nəfərdən ibarət Müsabiqə Komissiyası yaradılır.

Test imtahanı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən aparılır. Test imtahanında mümkün olan baldan ən azı 70 faizini toplamış namizəd müsahibəyə buraxılır. Müsahibə zamanı namizədə onun Azərbaycan Respublikasının Konstitusiyasını, vergi qanunvericiliyini, iqtisadi siyasətlə bağlı digər normativ hüquqi aktları tətbiq etmək sahəsində biliyinin və bacarığının müəyyən edilməsi üçün müvafiq suallar verilir. Müsabiqənin nəticələri namizədin imtahanda və müsahibədə topladığı keçid ballarının cəmlənməsi yolu ilə müəyyən edilir. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri və kompüterdən istifadəni mükəmməl bilənlərə üstünlük verilir.

Komissiya müsabiqənin nəticələri üzrə namizədin vergi orqanlarına işə qəbul olunması və ya olunmamasının tövsiyə edilməsi barədə iki qərardan birini qəbul edir.

Müsabiqənin nəticələrinə görə vergi orqanlarına işə qəbul olunmağa tövsiyə edilmiş namizədlər Azərbaycan Respublikasının vergilər nazirinə təqdim olunur. Vergilər naziri namizədləri boş olan ştatlara təyin edir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

VERGİLƏR NAZİRLİYİNİN TƏDRİS MƏRKƏZİ - 10 İL

# Region üçün təcrübə və bilik mənbəyi

Vergi inzibatçılığında hər hansı bir təşkilati islahatın və ya müasirləşmə prosesinin həyata keçirilməsi üçün vergi orqanı əməkdaşlarının hazırlığı, tədris və inkişafı zəruridir. Təsis olunmasının 10-cu ildönümünü qeyd edən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi təhsildə innovativ formaların, dövlət vergi orqanı əməkdaşının bütün karyerası dövrünü əhatə edən professional inkişaf fəaliyyətinə yardım edən müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin nümunəsini təşkil edir: vəzifəyə yeni təyin olunanlar üçün ilkin hazırlıq kursları, davamlı təhsil və tədris, ixtisasartırma kursları.

Fikrimcə, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) üzvləri arasında Azərbaycan vergi inzibatçılığı sahəsində ən yaxşı təcrübə mübadiləsində aktiv şəkildə iştirak edən və sürətlə inkişaf edən vergi administrasiyalarından biridir.

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinin gələcək inkişafına yardım edən belə təşəbbüsləri alqışlayır və təşkilatın üzvlərinin vergi gəlirlərinin yığılması səriştələrinin gücləndirilməsində, vergi ödəyicilərinə göstərilən xidmətlərin ən yüksək peşəkar standartlara çatdırılmasında, vergi öhdəliyinin yerinə yetirilməsi sahəsində istənilən həll variantlarını dəstəkləməsində maraqlıdır.

İnanıram ki, Tədris Mərkəzi yalnız Azərbaycanın deyil, eyni zamanda regionun digər ölkələrinin vergi administrasiyaları üçün də təcrübə və bilik mənbəyi olacaqdır.



Svayn Reyqnar KRİSTENSEN
IOTA-nın prezidenti

# TƏDRİS MƏRKƏZİNDƏ BİR GÜN...

Səhər saat 8-dir. Tədris Mərkəzinin həyətyanı sahəsində gözə dəyən ilk öncə xadimələr və ot örtüyünü sulayan, həyət-bacaya əl gəzdirən texniki işçilər olur, bir də idman geyimində təbiətin bu gözəl guşəsində gəzişən müəllim heyətinin üzvləri. Tədris Mərkəzinin həyətyanı sahəsi xüsusilə səhərlər öz gözəlliyi ilə göz oxşayır. Al-əlvan gül kolları, yaşıl çəmənliklər, dekorasiyalar həyətyanı sahənin gözəlliyinə əlavə rəng qatır, insanlarda xoş əhval-ruhiyyə yaradır. Rahat oturacaqlar, kənardan sərinlik gətirən kiçik su şırnaqları insanda daxili bir rahatlıq hissi yaradır.

Dinləyicilərin və müəllimlərin böyük bir qismi hələ idman komleksindədir. Qapalı idman-sağlamlıq komleksi hamının üz tutduğu yerlərdən biridir. İdman kompleksindəki avadanlıqlar gecə-gündüz insanların ixtiyarındadır, burada həmişə qələbəlik olur. Hovuzun isə ayrı bir gözəlliyi var. Adətən, insanlar bura axşamlar gəlirlər: hovuzda üzmək gün ərzində yığılan yorğunluğu aradan qaldırmağa kömək edir.

...Təxminən 1 saatlıq idmandan və gəzintidən sonra müəllim və müdavim heyəti geniş və yaraşıqlı yeməkxanaya -səhər yeməyinə yollanır. Səhər süfrəsindən sonra hər kəs öz otağına çəkilərək dərs üçün lazım olan əşyalarını yerbəyer edir.

Az sonra dinləyicilər foyedən auditoriyaya tələsirlər: saat 10.00-da dərs başlayır. Mərkəzdə bütün texniki vasitələrlə təchiz edilmiş üç mühazirə auditoriyası yaradılıb və hər auditoriya 20 nəfərlik müdavim üçün nəzərdə tutulub.

*...Buranın özünəməxsus gözəlliyi var. Dağlarla əhatələnmiş təbiətin əsrarəngiz bir guşəsində yerləşən bu təhsil müəssisəsi paytaxtdan bura peşə hazırlığını və ixtisaslarını artırmağa gələn müdavimlər, seminar və konfranslara təşrif buyuran qonaqlar üçün təhsil və elm ocağı olmaqla yanaşı, həm də bir işgüzar görüş məkanı sayılır. Mərkəzi respublikamızda fəaliyyət göstərən digər tədris ocaqlarından fərqləndirən əsas cəhət inzibati, tədris, yataqxana, yaşayış və kotteclərdən ibarət binaların, idman-sağlamlıq kompleksinin vahid şəkildə bir ərazidə yerləşməsidir. Bura həm təhsil almaq və elmi fəaliyyətlə məşğul olmaq, həm yaşamaq, həm də təhsildənkənar vaxtlarda istirahət etmək üçün seçilmiş əla bir məkandır.*



*davamı 5-ci səhifədə*

# Nağdsız ödənişlər müasir dövrün çağırışıdır

*əvvəli 2-ci səhifədə*

«Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2010-cu il tarixli «Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında fərmanına əsasən, Vergilər Nazirliyi vergi və rüsumların elektron formada ödənilməsi sahəsində mühüm tədbirlər həyata keçirmişdir: «Nazirlər Kabinetinin 30 dekabr 2007-ci il tarixli qərarı ilə «Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları» təsdiq edilmişdir. Bununla əlaqədar Vergilər Nazirliyi tərəfindən ƏDV-nin depozit hesabı və ƏDV subuçot hesabları üzrə vəsaitlərin uçotunu aparan, vergi ödəyicilərinə ƏDV-nin depozit hesabından istifadə imkanı yaradan İnternet Vergi İdarəsinin müvafiq modulu istifadəyə verilmişdir. Hər bir vergi ödəcəyicisi bu moduldan istifadə edərək depozit hesabdan əməliyyatların aparılması imkanı əldə etmişdir».

İ.Xəlilov təqdimatında ƏDV depozit hesabının üstünlükləri, vəsaitlərin dövlət büdcəsinə elektron formada ödənilməsi qaydaları barədə də məlumat vermiş, qısa müddətdə bu sahədə əldə olunan nəticələri diqqətə çatdırmışdır: «Elektron vergi ödənişi sisteminin tətbiqi nəticəsində 2012-ci ilin aprel-may aylarında 37.921 əməliyyat həyata keçirilmiş, büdcəyə 15 milyon 146 min 673 manat vergi ödənilmişdir».

**Nağdsız ödənişlər yüksək mədəniyyətin nümayişidir**

Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) siyasət və hüquq məsələləri üzrə koordinatoru Şahid Şükürov «Nağdsız hesablaşmaların stimullaşdırılması işində biznes ictimaiyyətinin mövqeyi» mövzusunda çıxış edərək Vergilər Nazirliyinin nağdsız ödənişlərin həcminin artırılması və POS-terminalların quraşdırılması sahəsində fəaliyyətini yüksək dəyərləndirmişdir. O, müasir dünyada yüksək mədəniyyət göstəricisi kimi qəbul olunan nağdsız ödənişlərin korrupsiya, rüşvətxorluq və vergidən yayınma hallarına qarşı səmərəli mübarizə vasitəsi olduğunu qeyd etmiş, biznes strukturlarını dövlətin bu sahədə həyata keçirdiyi tədbirlərə dəstək verməyə çağırmışdır.

AMCHAM-a üzv olan şirkətlərin nağdsız ödəniş sisteminin inkişafında maraqlı olduğunu bildirən Ş.Şükürov əlavə etmişdir ki, hazırda ən zəruri məsələlərdən biri də vətəndaşların bu sahədə maarifləndirilməsidir: «Nağd ödənişlər üçün müəyyən məhdudlaşdırıcı həddin müəyyənləşdirilməsi məqsədilə qanunvericiliyə müəyyən əlavələr edilə bilər».

**«Plastik kartlar hər cür nağdsız ödənişlərə imkan yaradır**

«AtaBank» ASC-nin Bank kartları departamentinin direktor müavini Kamran Şıxəliyev «POS-terminallar vasitəsilə plastik kartlarla nağdsız ödənişlərin həyata keçirilməsi qaydaları barədə» mövzusunda təqdimatında bildirmişdir ki, son aylarda həyata keçirilən islahatlar və maarifləndirmə tədbirləri nağdsız ödənişlərin həcminin artmasını təmin etmişdir. Bildirilmişdir ki, «AtaBank» ASC «Visa» beynəlxalq ödəniş sisteminin üzvü olaraq «Visa Electron», «Visa Classic», «Visa Gold», «Visa Business» və «Visa Platinum» kartlarını emissiya edir. 2012-ci ildə bank, həmçinin, «Maestro», «MasterCard Standard», «MasterCard Gold» və «MasterCard Platinum» kartlarını dövriyyəyə buraxacaqdır: «AtaBank»ın kartları ilə mal almaq, bankomatlar və ya internet üzərindən kommunal haqlarını ödəmək, mehmanxanalarda bronlaşdırma aparmaq, avtomobilləri kirayəyə götürmək və digər xidmətlərdən yararlanmaq mümkündür. Bu kartlarla bütün dünya ölkələrində nağdsız əməliyyatları aparmaq mümkündür».

**Beynəlxalq ödəniş sistemlərinə inteqrasiya**

«Kapital Bank» ASC-nin aparıcı mütəxəssisi Ramil Məcidov «POS-terminalların tətbiqi: mövcud vəziyyət və perspektiv imkanlar» mövzusunda çıxışında nağdsız ödənişlərin həcminin artırılmasında bankların üzərinə düşən vəzifələrdən söz açmışdır: «Kapital Bank» respublikanın ödəniş kartları bazarında sayına, ekvayerinq şəbəkəsinin genişliyinə və bu sahədə göstərilən xidmətlərin müxtəlifliyinə görə xüsusi çəkiyə malikdir. Bank hazırda aktiv ödəniş kartlarının sayına görə liderlik edir. 2012-ci ilin birinci rübünün yekunlarına əsasən, bankın aktiv ödəniş kartlarının sayı 2 milyondan çox olmuşdur. Bankımız «MasterCard International» və «VISA International» beynəlxalq ödəniş sistemlərinin tam hüquqlu üzvü olmaqla, müştərilərinə müxtəlif növ ödəniş kartları təklif edir. «Kapital Bank» özünün daxili prosessinq sisteminə malikdir. Bankın kartları vasitəsilə mobil rabitə, beynəlxalq danışıqlar və kommunal xidmətlər üzrə ödəmələr aparmaq, kartdan karta pul köçürmək və digər əməliyyatlar həyata keçirmək mümkündür. Bundan başqa, bankın «Bizim market» mağazalar şəbəkəsi ilə birgə təşkil etdiyi «Kartlı bazarlıq» lotereyası stimullaşdırıcı kampaniyalardan biridir. Məqsəd müştəriləri nağdsız ödənişlərə həvəsləndirməkdir».

...Seminarın ilk iş gününun sonunda təqdimatlar ətrafında geniş müzakirələr aparılmışdır. Çıxışlarda xüsusi vurğulanmışdır ki, ölkədə nağdsız dövriyyənin inkişaf etdirilməsi üçün geniş potensial mövcuddur və hazırda həyata keçirilən tədbirlər müsbət nəticələrini verəcəkdir. Sonra media nümayəndələrini maraqlandıran məsələlərə aydınlıq gətirilmişdir.

**Elektron auksion layihəsi reallaşacaq**

Seminarın ikinci günü «Qolden Pay» şirkətinin təsisçisi Fərid İsmayılzadə «Elektron ticarət: mövcud vəziyyət və perspektivlər» mövzusunda təqdimatla çıxış edərək şirkətin nağdsız ödənişlərin həcminin artırılması sahəsində həyata keçirdiyi layihələr barədə məlumat vermişdir. O, Azərbaycanın ilk internet ödəmə sistemi olan «Qolden Pay»ın 2009-cu ilin mart ayında istifadəyə verildiyini, şirkətin ölkədə elektron ticarətin genişləndirilməsi üçün bir sıra yeni layihələr üzərində işlədiyini bildirmişdir: «Azərbaycanda elektron ticarətin tətbiq edilə biləcəyi sahələr üzrə aylıq dövriyyə yarım milyard manatdan çoxdur. Söhbət kommunal, mobil, kabel TV, stasionar telefon, internet provayder xidmətləri üçün ödəmələrdən gedir. Eyni zamanda, elektron auksion, elektron pul kisəsi, sığorta polislərinin, səyahət məhsullarının, əyləncə və idman tədbirlərinə bilet satışlarının, müxtəlif geyimlərin elektron formada alınması nağdsız dövriyyənin həcmini daha da artıra bilər».

**Əhalinin maarifləndirilməsi diqqət mərkəzindədir**

Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev «Nağdsız hesablaşmaların tətbiqində vətəndaş cəmiyyətinin rolu» mövzusunda çıxışında son vaxtlar Vergilər Nazirliyi və Mərkəzi Bankın birgə həyata keçirdiyi tədbirlər nəticəsində ölkədə POS-terminallar vasitəsilə nağdsız ödənişlərin həcminin artmasını pozitiv proses kimi dəyərləndirmişdir. Seminarın əhəmiyyətindən danışan iqtisadçı ekspert bildirmişdir ki, nağdsız dövriyyənin genişləndirilməsi hazırda postsovet məkanı üçün aktual məsələlərdən biridir: «Hesab edirəm ki, nağdsız ödəniş sisteminin tətbiqi ilə bağlı digər ölkələrin təcrübəsinə də istinad olunmalıdır. Xüsusən də nağd ödənişlər üçün müəyyən məhdudlaşdırıcı həddin müəyyənləşdirilməsi zamanı xarici təcrübənin öyrənilməsi vacibdir. Lakin bununla yanaşı, əhali arasında maarifləndirmə tədbirlərinin genişləndirilməsi də zəruri məsələlərdən biridir. Bu prosesdə dövlət qurumları, biznes strukturları ilə yanaşı, media və vətəndaş cəmiyyəti institutlarının da fəal iştirakının təmin olunması vacibdir».

**KİV-lə əməkdaşlıq genişləndirilir**

Vergilər Nazirliyinin Analitik-informasiya şöbəsinin baş vergi müfəttişi Rövşən Məmmədov «Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsində təbliğat işlərinin rolu» mövzusunda təqdimatında əhalinin maarifləndirilməsi sahəsində həyata keçirilən çoxşaxəli tədbirlərdən danışmış, bu prosesin ardıcıl xarakter daşıdığını qeyd etmişdir: «Kütləvi informasiya vasitələrinin cəmiyyətlə nazirlik arasında körpü rolunu oynadığını nəzərə alırıq və bu baxımdan, əməkdaşlığımızı təkcə kəmiyyət deyil, həm də keyfiyyət prinsipləri üzərində qururuq. Qısa müddətdə KİV nümayəndələri ilə 50-dən çox görüş keçirilmiş və onlara görülən işlər barədə məlumat verilmişdir. Aprelin 22-dən mayın 31-dək nağdsız ödəmələrin stimullaşdırılması və POS-terminallardan istifadə barədə KİV-də ümumilikdə 150-dək material verilmişdir. Televiziya kanallarının xəbərlər proqramında aprel-may aylarında bu məsələlərlə bağlı efirdə 36 süjet getmiş, qəzetlərdə isə 67 məqalə dərc olunmuşdur».

...Çıxışlar ətrafında müzakirələr zamanı KİV nümayəndələrinin sualları cavablandırılmış, onlara sertifikatlar təqdim olunmuşdur. Seminara yekun vuran Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev əmin olduğunu bildirmişdir ki, tədbir çərçivəsində aparılan səmərəli müzakirələr, səslənən rəy və təkliflər ölkədə nağdsız ödənişlərin həcminin daha da artmasına müsbət təsir göstərəcəkdir.

**Samir MUSTAFAYEV**

# TƏDRİS MƏRKƏZİNDƏ BİR GÜN...

*əvvəli 4-cü səhifədə*

## Tədrisin əsas istiqamətləri

***Tədris Mərkəzinin təhsil işləri üzrə rəis müavini Mirəli Kazımov:*** «Mərkəzdə dövlət vergi orqanları əməkdaşlarının peşə hazırlığı təlimin müxtəlif formaları üzrə qruplaşdırılır: ilkin hazırlıq, ixtisasartırma



və yenidən hazırlıq, təcrübə, xidməti hazırlıq, təhsil və elmi fəaliyyət. Bu təhsil müəssisəsində üç səviyyədə hazırlıq nəzərdə tutulur. Birinci səviyyə 2 ay ərzində yeni işə qəbul olunanları, ikinci səviyyə vəzifəli şəxsləri, üçüncü səviyyə isə rəhbər vəzifəli işçilər üçün qısamüddətli treninq kurslarını əhatə edir». M.Kazımov əlavə edir ki, Mərkəzin strukturuna iqtisadiyyat və menecment, vergi metodologiyası, vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedraları, elmi tədqiqat bölməsi, tədris-metodika və maliyyə-təsərrüfat şöbələri daxildir. «Hazırda Mərkəzdə çalışan kollektivin hər bir üzvü səviyyəli və peşəkar əməkdaş olmaqla yanaşı, həm də təlim prosesinə müsbət təsir göstərən böyük pedaqoji təcrübəyə malikdir. Əməkdaşlar beynəlxalq miqyasda və respublika səviyyəsində təşkil olunan elmi-praktiki konfranslarda, seminarlarda, təlimçilərin treninqlərində iştirak edərək daim öz elmi və pedaqoji potensiallarını artırırlar».

***Tədris və metodika şöbəsinin rəisi Ramiz Məhərrəmovun*** sözlərinə görə, dövlət vergi orqanlarının mütəxəssis təlim qrupuna aid edilən əməkdaşları üçün də ayrıca proqramlar tərtib edilir, tədris proqramlarının və tədris prosesinin kataloqlarının hazırlanması istiqamətində işlər həyata keçirilir, onlar beynəlxalq standartlara uyğunlaşdırılır. Bundan əlavə, təlim qrupuna aid edilən əməkdaşlar üçün müxtəlif proqramlar üzrə ixtisasartırma kursları keçirilir. Bu kurslar dövlət vergi orqanlarında vergi ödəyicilərinə xidmət, uçot, hesabat, kargüzarlıq və koordinasiya, operativ vergi nəzarətinin həyata keçirilməsi, təqdim edilmiş bəyannamələrin və vergi borclarının alınması, vergi cinayətlərinin ibtidai araşdırılması işlərinin, habelə vahid telefon xidmətinin təşkili, eləcə də ticarət, tikinti müəssisələri və maliyyə-kredit təşkilatlarında vergi auditinin keçirilməsi, vergi qanunvericiliyi və inzibatçılığı kimi mövzuları əhatə edir. Yaxın vaxtlarda Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları üçün də ixtisasartırma kurslarının keçirilməsi planlaşdırılır.

...Günün ilk dərsi vergi qanunvericiliyi ilə bağlıdır. ***Vergi qanunvericiliyi və təsərrüfat hüquqi kafedrasının baş müəllimi Fazil Yadigarovun*** dediyinə görə, tədris planının başlıca hədəfi vergi sistemində çalışan əməkdaşların peşə hazırlığını və ixtisaslarını artırmaqdan, vergi siyasətinə dair aparılan elmi tədqiqatlar barədə onları zəruri biliklərlə təmin etməkdən ibarətdir. Tədris proqramında Vergi Məcəlləsinin tətbiqinin hüquqi aspektləri, vergitutmanın aktual problemləri, mühasibat uçotu və hesabatı, vergi inzibatçılığı, hüquqi və fiziki şəxslərin vergiyə cəlb edilməsi, gömrük qanunvericiliyi, kompüter biliklərinin əsasları kimi xüsusi mövzulara geniş yer verilir. Müdavimlərin texniki vasitələrlə iş vərdişlərinin, nazirliyin strateji məqsədlərinin mənimsənilməsi, şəxsi heyətin yeni islahatların həyata keçirilməsinə hazırlanması və yeni strukturlara uyğunlaşdırılması kimi məsələlər də prioritet istiqamətlərdir.

***İqtisadiyyat və menecment kafedrasının dosenti İlqar Seyfullayev*** isə bildirdi ki, tədris prosesində ənənəvi təlimlərlə yanaşı, real vaxt rejimində məsafədən, kombinə edilmiş və dinləyicilərin birbaşa iş yerlərində səyyar tədris metodları kimi təlim formalarından da istifadə olunur. Zamanın tələblərinə uyğun olaraq, tədrisin real vaxt rejimində məsafədən və kombinə edilmiş təlim metodu əsasında təşkili qaydaları mütəmadi olaraq yenilənir.

## Müdavimlərlə söhbət zamanı...

məlum oldu ki, onlar tədris prosesindən və proqramdan razıdırlar. Vergilər Nazirliyinin elektron xidmətlərin tətbiqi ilə bağlı həyata keçirdiyi tədbirlərin Mərkəzin tədris proqramına daxil edilməsi və e-xidmətlər barədə yeniliklərin mənimsənilməsi üçün keçilən dərslər bunu deməyə əsas verir.

Dinləyicilərdən biri deyir ki, Vergilər Nazirliyinin idarə rəisləri və aparıcı mütəxəssisləri tədris prosesini izləmək üçün tez-tez auditoriyalara baş çəkirlər. Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədovun onlarla söhbəti də növbəti görüşlərdən biri idi. İdarə rəisi tədrisin keyfiyyəti, metodiki vəsaitlər, texniki imkanlar və digər məsələlərlə bağlı dinləyicilərin fikirlərini öyrənirdi.

## İKT və tədris

Tədris Mərkəzində informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunması diqqəti çəkir. Auditoriyada dərs prosesi zamanı dinləyicilərə məsafədən tədrisin müxtəlif formalarının tətbiqi izah olunurdu. Söhbət zamanı o da məlum oldu ki, yaxın vaxtlarda Mərkəzdə kombinə edilmiş tədrisin və virtual sinfin təşkili planlaşdırılır. Eyni zamanda, tədris prosesində istifadə olunan ən müasir avadanlıqların quraşdırılması, inzibatçılıqla bağlı AVİS-dən əyani vəsait kimi istifadə edilməsi, əyani vəsaitlər kimi kassa aparatlarının, POS-terminalların, aksiz markasını yoxlamaq üçün qurğuların, operativ nəzarət zamanı istifadə olunan digər avadanlıqların gətirilməsi nəzərdə tutulur. Mərkəz yeni dövrün çağırışlarına uyğun olaraq əyani vəsait kimi istifadə edilən ən son texnoloji vasitələrin tədris prosesində tətbiqini əsas məqsədlərdən biri hesab edir.

## Diqqət, imtahan gedir!..

Tədris Mərkəzində olduğumuz gün müdavimlərin bir qrupu imtahan verirdi. Səhər saatlarında foyeyə toplaşmış müdavimlərin əhval-ruhiyyəsindən məlum olur ki, onlar bir neçə dəqiqədən sonra imtahana girəcəklər. İmtahanqabağı həyəcan, daxili narahatlıq o qədər də hiss olunmur. Tədris Mərkəzində imtahan verməyə hazırlaşan müdavimlərin özlərini çox rahat və sərbəst aparmaları onların kifayət qədər hazırlıqlı və tədrisi yaxşı mənimsədiklərindən «sınaqdan qalib» çıxacaqlarına əmin olduqlarını göstərir...

İmtahan başlayır. Tədris Mərkəzinin rəisi səlahiyyətlərini icra edən Aysu Məmmədova, imtahan komissiyasının sədri, Vergilər Nazirliyinin Kadrlar idarəsinin rəisi Faiq Şahbazov və komissiyanın katibi, Vergi ödəyicilərə xidmət idarəsinin rəisi Elçin Məmmədov imtahandan əvvəl zəruri tapşırıq və tövsiyələrini bildirirlər. Müəyyən olunmuş vaxt bitir və əhvalından hiss olunur ki, imtahan komissiyasının sədri dinləyicilərin cavablarından razıdır.

***İmtahandan çıxan müdavimlərin fikirlərini öyrənirik.***

**İsmayıl Mirzəyev:** *İmtahanda 120 suala cavab vermək üçün 130 dəqiqə vaxt verilmişdi. İmtahan çox rahat keçdi, sualların, demək olar ki, hər birinə ətraflı cavab verdim.*

**Asəf Məmmədov:** *Suallar tədris müddətində keçilən dərslərə uyğun tərtib olunur və ona görə də tədrisi yaxşı mənimsəmiş dinləyicilər üçün çətin deyil.*

**Ülkər Məmmədova:** *İmtahanda sualları tam təfərrüatı ilə cavablandırdım. İnanıram ki, yaxşı qiymətləndiriləcək.*

**Ramil İsmayılov:** *İmtahan suallarına vergi sistemində son illər tətbiq olunan son yeniliklərin daxil edilməsini yüksək qiymətləndirirəm. Ümumiyyətlə, tədris prosesində öyrəndiyimiz biliklər imtahandan uğurla keçə biləcəyimizə əminlik yaradır.*

**Sərxan Məmmədov:** *Vergilər Nazirliyinin tədris proqramı çox zəngindir, dinləyicilərin vergi sistemində həyata keçirilən islahatlar barədə geniş və dərin bilik əldə etməsinə səbəb olur. Tədrisin keyfiyyətinin yüksək olması sonda imtahan zamanı öz nəticəsini göstərir.*

## Tibb məntəqəsi

Sözün açığı, indiyədək dinləyicilər və Mərkəzin işçiləri arasında səhhəti ilə bağlı narahatlıq keçirən olmasa da, burada bir çox zəruri dərman və ləvazimatlar var. Mərkəzin əməkdaşları deyirlər ki, bu cür təmiz havası olan, təbiətin qoynunda yerləşən, müasir idman kompleksi olan yerdə xəstələk-filan da olmaz.

## Yaşayış yeri

Ayrıca tikilmiş yaşayış korpusunun infrastruktur təminatı ilə maraqlandıq. Birotaqlı 12, ikiotaqlı 24 mənzildən ibarət iki korpusda müəllimlərin ailələrinin yaşayışı üçün lazım olan tələblər nəzərə alınıb. İqtisadiyyat və menecment kafedrasının baş müəllimi Mülkədar Nadir deyir ki, onun üçün 2 otaqlı mənzil ayrılıb və burada ailəsi ilə birlikdə yaşayır: «Otaqlarda rahat yaşayış üçün hər bir şərait yaradılıb. Bura öz evimizdən heç fərqlənmir. Mətbəxin və otaqların su, istilik təminatı çox yaxşıdır. Mətbəxdə və hamamda 24 saat fasiləsiz isti və soyuq su olur. Mənzillərin hər birində soyuducu var, şkaf və digər avadanlıq-



lar, qaz sobası quraşdırılıb. Qışda otaqların qızdırılması da yüksək səviyyədə təmin edilir. Otaqlarda bir neçə kanala baxmağa imkan verən televizor var, ayrıca telefon xətti çəkilib». Mülkədar müəllim bu cür şəraitə malik mənzillərdə darıxmağa macal olmadığını, vaxtlarını çox səmərəli və mənalı keçirdiklərini söyləyir...

Mərkəzdə dəvət olunan ekspertlərin rahatlığı üçün də normal şərait yaradılıb. Hər biri 2 nömrə olmaqla ikimərtəbəli 2 kottec onlar üçün nəzərdə tutulub. Xarici ölkələrdən gəlmiş qonaqlar buradakı imkanları yüksək qiymətləndirirlər...

## İnternet mərkəzi və kitabxana

Tədris Mərkəzinin internet mərkəzində tədris və təhsil üçün hər cür imkan yaradılıb. İnternetin sürəti çox yüksəkdir və 15-ə yaxın kompüterin sürət trafiki paytaxt Bakıda bir çox inzibati strukturların və şirkətlərin internetindən heç də geri qalmır. İnternet mərkəzinin qapıları gecə saatlarında belə, bütün istifadəçilərin üzünə açıqdır.

Mərkəzin kitabxanası da ən çox üz tutulan məkanlardan biridir. Ulu öndər Heydər Əliyevin fəaliyyətini əks etdirən zəngin elmi əsərlər, ümummilli liderin Azərbaycanın vergi sisteminin inkişafı ilə bağlı həyata keçirdiyi islahatlara dair materiallar, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda davam etdirilən məqsədyönlü siyasətin mühüm uğurları barədə kitab və zəruri məlumatlar kitabxananın əsas ədəbiyyatları sırasındadır. Kitabxanada Azərbaycanın dövlət müstəqilliyini bərpa edəndən sonra 20 il ərzində keçdiyi inkişaf yoluna, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, vergi sistemində həyata keçirilən islahatlara dair vəsaitlər əldə etmək olar. Dinləyici Ülkər Məmmədovanın sözlərinə görə, o, yolunu hər gün buradan salır. Kitabxanada gün ərzində ən azı bir saat mütaliə etməsə, özünü narahat hiss edir. Deyir ki, burada vergi qanunvericiliyindən tutmuş ən son yeniliklər barədə məlumatlara qədər kitab və broşürlər, qəzet və jurnallar almaq, eləcə də xarici ölkələrin vergi qanunvericiliyi, həyata keçirilən islahatlar haqqında əyani materiallar əldə etmək mümkündür.

Tədris Mərkəzinin akt zalı çox genişdir və bütün texniki-informasiya sistemləri ilə təmin olunub. Təxminən 100 nəfərlik zalda mühüm tədbirlərin, təqdimat mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb. İndiyədək bu zalda ölkə səviyyəsində bir neçə mühüm tədbir, beynəlxalq konfrans keçirilib.

## Foyedə...

Yüksək zövqlə tərtib edilən foye və guşələr özünəməxsus gözəlliyi ilə seçilir və burada istirahət üçün hər cür şərait var. Foyelərdə yerləşdirilmiş komfort divan və kreslolar müdavimlərin və müəllimlərin vaxtlarını asudə keçirmələri üçün əsl rahatlıq yaradır. İri ekranlı televizorlar vasitəsilə yerli və xarici kanallara baxmaq mümkündür. Guşələrdəki masaların üzərində daimi olaraq yenilənən qəzet və jurnallar, bülletenlər, vergilərə aid broşürlər, kitab və digər vəsaitlər dərsdən sonra rahat bir şəkildə mütaliə üçün əla fürsət yaradır.



...Gecəyarısı foyedə böyük bir həyəcan yaşanır. Burada quraşdırılmış böyük ekranlı televizorun ətrafına yığışmış futbol azarkeşləri «Avro-2012»nin qrup mərhələsinin növbəti oyununu seyr edirlər. Almaniya ilə Hollandiya arasında gedən oyun dinləyiciləri iki qrupa bölüb. Almanlara tərəfkeşlik edən çoxluq çox şən görünür, hiss olunur ki, hollandların məğlub olması azarkeşlərini məyus edib. Bu mənzərənin ayrıca bir gözəlliyi vardı və dinləyicilərin həyatına əlavə rəng qatır, bütün yorğunluqlarının çıxmasına səbəb olur, sabahkı dərs üçün yeni stimul yaradırdı.

## Təsərrüfat

Mərkəzin enerji təminatı üçün ayrıca quraşdırılmış transformator məntəqəsi 24 saat fasiləsiz və keyfiyyətli enerji verilməsini təmin edir. Qazanxana isə həm tədris binasının auditoriya və otaqlarını, yataqxananı, həm də yaşayış binasının otaqlarını istilik sistemi ilə təchiz edir. Qazanxananın operatoru Firdovsi Məmmədov deyir ki, qışda ən soyuq temperaturda belə, otaqlarda fasiləsiz isti su olur. «Fevralda havalar çox sərt oldu, son illərdə belə şaxtalara az rast gəlinib. Bu cür vəziyyətdə istiliyin təmin edilməsi üçün avadanlıqlara daim diqqət tələb olunur. Qazanxanamız ən müasir avadanlıqlarla təmin olunub və kəskin soyuqlarda istiliklə bağlı heç bir problemimiz olmayıb».

## Məzmunla formanın ahəngdarlığı

Azərbaycan Prezidenti İlham Əliyev 2011-ci ilin sentyabr ayının 13-də Şamaxıdakı Tədris Mərkəzinin açılışında çıxış edərkən maraqlı bir məqama toxunaraq qeyd etmişdi ki, bu binada tədris o dərəcədə keyfiyyətli olacaqdır ki, peşəkarlıq səviyyəsi binanın xarici görünüşünün səviyyəsinə uyğun gələcəkdir. Dövlət başçısı dediyi fikirlərə çox əmin idi. Mərkəzdə tədrisin keyfiyyətinin, təhsil alan müdavimlərin peşəkarlıq səviyyəsinin yüksək olacağına inanırdı. Bu inam indi özünü təsdiqləyir. Ötən 9 ay ərzində ixtisasartırma kurslarını bitirən dinləyicilərin hazırlıq səviyyəsi, qazanılan təcrübə, əldə olunan nəticələr göstərir ki, Mərkəzin yeni istifadəyə verilmiş binası, sözün əsl mənasında, daxili və xarici komponentlərinə görə bir-birini tamamlayır, elm və təhsil məbədi kimi yüksək bir missiyaya xidmət edir.

### Dinləyicilərin təəssüratları

**Nicat Həsənov:** *«Tədris Mərkəzinin əsas məqsədlərindən biri yeni kadr hazırlığının həyata keçirilməsidir. Vergi sistemində aparılan kadr islahatları yeni dövrün tələblərinə uyğun kadr hazırlığının təmin olunmasını təmin edir. Bu istiqamətdə Tədris Mərkəzinin fəaliyyəti mühüm əhəmiyyət dağıyır. Biz burada öyrəndiklərimizi praktiki olaraq iş fəaliyyətiimizdə təsdiq etməyə çalışacağıq».*

**Əlizamin Cəfərov:** *«Şamaxı rayonunda yerləşən Tədris Mərkəzinin istifadəyə verilməsi vergi sistemində tədris prosesinin yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Məlum olduğu kimi, hazırda ölkəmizdə tətbiq olunan yeni texnologiyalar iqtisadi idarəetmədə səmərəliliyə, şəffaflığın artmasına zəmin yaradır. Bunun üçün kadrların da bu idarəetmənin tələblərinə uyğun hazırlanması vacibdir. Tədris Mərkəzi bu məqsədlərə çatmaq üçün hər bir şəraitə malikdir, buradakı tədrisin keyfiyyətindən razıyıq».*

**Xətai İsmayılzadə:** *«Müasir dövrdə iqtisadi inkişafın əsas tələblərindən biri elmi biliklərə əsaslanan iqtisadiyyatın yaradılmasıdır. Yeni texnologiyalar əsasında idarə olunan iqtisadiyyatda kadr potensialının rolu çox böyükdür. Hazırda ölkəmizdə elektron xidmətlərin tətbiqi dairəsi genişlənib, informasiyalı cəmiyyət quruculuğu geniş vüsət alıb və Vergilər Nazirliyi bu yenilikləri ən çox tətbiq edən dövlət orqanıdır. Elektron xidmətlərin tətbiqinin genişlənməsi zəngin kadr potensialının olmasını tələb edir. Ona görə də Mərkəzdə tədrisin keyfiyyətinin yüksəldilməsi, yeni tədris modelinin tətbiq olunması ilə bağlı həyata keçirilən tədbirlər mühüm əhəmiyyətə malikdir».*

**Runay Həsənova:** *«Son illər respublikamızda vergi sistemində geniş spektrdə islahatlar aparılıb və bu sahədə modern texnologiyaların tətbiq olunması kadrların üzərinə böyük vəzifə qoyur. Onların yenilikləri mənimsəməsi, yenidən hazırlanması ən vacib məsələlərdəndir. Tədris Mərkəzi, bu baxımdan, müstəsna rola malikdir. Burada tədrisin keyfiyyəti yüksək səviyyədədir. Mərkəzdə hər şey yaxşı təşkil olunub, tədrisin əyaniliyini təmin etmək üçün lazım olan texniki imkanlar yaradılıb».*

**Aqil Axiyev:** *«Vergilər Nazirliyinin insan resurslarının inkişafı ilə bağlı strategiyasında başlıca istiqamətlərdən biri vergi işçilərinin peşə hazırlığının artırılması, güclü kadr bazasının formalaşdırılmasıdır. Tədris Mərkəzi də bu strateji məqsədlərə xidmət edərək davamlı olaraq yeni tədris metodlarından istifadə edir. Burada tətbiq olunan tədris proqramı əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılmasının güclənməsinə təkan verir».*

**Cəfər Cəfərov:** *«Tədris Mərkəzinin belə bir gözəl yerdə, təbiətin qoynunda yerləşməsi insanların əhval-ruhiyyəsinə xoş təsir göstərir, onların tədrisə olan marağına böyük stimul verir. Bu cür füsunkar, mənzərəli bir yerdə daha keyfiyyətli dərs almağın özünün bir gözəlliyi var».*

**Coşqun İsmayılov:** *«Tədris proqramı çox genişdir və vergi sistemindəki son yenilikləri əhatə edir. Qısa bir dövr ərzində çox şeyi öyrənmək mümkün oldu. Dərsdən sonra istirahət və günümüzün xoş keçməsi üçün yaxşı şərait mövcuddur. «Vitamin bar» məndə çox gözəl təəssürat yaradıb, bura dinləyicilərin ən çox sevdiyi məkanlardan biridir. Dərsdən sonra yorğunluq, narahatlıq burada dincələrkən tez bir zamanda aradan qalxır. Qapalı idman-sağlamlıq kompleksi də ən çox üz tutduğumuz yerlərdən biridir. Kompleksdə hər cür idman avadanlıqları var, dərsdən sonra idman etmək üçün əla fürsətimiz olur, demək olar ki, hamı hər səhər və axşam buraya gəlir».*

**Elbrus CƏFƏRLİ**

# Kadr potensialının gücləndirilməsində Tədris Mərkəzinin mühüm rolu var

**Vergilər Nazirliyinin Tədris Mərkəzinin yaradılmasının 10 illiyi ərəfəsində nazirliyin İnsan resursları idarəsinin rəisi Faiq Şahbazovla görüşüb, bizi maraqlandıran suallara cavab axtardıq.**



***- Faiq müəllim, Vergilər Nazirliyi dövlət orqanları arasında ilk qurumlardan biridir ki, işə qəbul prosesini test üsulu ilə həyata keçirməyə başlayıb. Gənc kadrların işə cəlb olunması ölkədə yürüdülən gəncləşmə siyasətinə uyğun aparılır. Bu günə qədər neçə gənc kadr dövlət vergi orqanlarına bu üsulla işə qəbul olunmuşdur?***

- Gənclərin bilik və bacarıqlarının effektli şəkildə reallaşdırılması, cəmiyyətdə onların layiqli yer tutmasını təmin edən şəraitin yaradılması dövlət başçısı cənab İlham Əliyevin ölkədə yürütdüyü gənclər siyasətinin əsas istiqamətini təşkil edir. Bu baxımdan, gənc nəslin nümayəndələrinin dövlətin və cəmiyyətin ictimai-siyasi, iqtisadi-sosial və mədəni həyatında rolunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılır, gənclərin işlə təmin olunması, onların maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlət səviyyəsində müvafiq tədbirlər həyata keçirilir. Vergilər Nazirliyi də öz növbəsində gənc kadrların işlə təmin olunması sahəsində müvafiq tədbirlər həyata keçirir. Vergi orqanlarına işə qəbul 2005-ci ildən «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»yə uyğun olaraq test üsulu ilə keçirilir. Tələblərə cavab verən Azərbaycan Respublikasının vətəndaşı vergi orqanlarına işə qəbul olunmaq üçün elektron ərizə ilə Vergilər Nazirliyinə müraciət edə bilər. İşə qəbul imtahanı iki mərhələdə - test və müsahibə üsulu ilə keçirilir. Test imtahanları Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən, müsahibə mərhələsi isə Vergilər Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən keçirilir. Testdən uğurla keçənlər müsahibə mərhələsində iştirak edirlər.

Hər il vergi xidmətinə işə qəbulla bağlı keçirilən imtahanlarda müvəffəqiyyət qazanan bir çox gənc vergi orqanlarında işlə təmin olunur. 2005-ci ildən indiki dövrə qədər dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün müraciət edən vətəndaşların sayı 6894-ə çatmışdır. Müraciət edənlərin 5844-nün sənədləri qəbul edilmişdir. Sözügedən dövrdə 782 nəfər müsabiqədə müvəffəqiyyət qazanmışdır. Müsabiqəni uğurla başa vurub işlə təmin olunmuş vətəndaşların sayı isə 745 nəfərə çatmışdır.

Dövlət vergi orqanlarına test üsulu ilə işə qəbulun tətbiqi bu sahədə obyektivliyi və şəffaflığı təmin etmiş, savadlı mütəxəssislərin vergi sisteminə cəlb olunması işini bir qədər də asanlaşdırmışdır. Test imtahanı zamanı yaranan yüksək rəqabət nəticəsində ən bilikli, savadlı şəxslər seçilərək vergi orqanlarında işlə təmin olunurlar.

Namizədlər işə qəbul olunduqdan sonra onlar üçün nəzərdə tutulmuş vəzifədə bir il çalışırlar. Həmin müddət ərzində namizədlər Vergilər Nazirliyinin Tədris Mərkəzində təşkil olunan müvafiq kurslardan keçirlər. Bu kurslar onların vergilərlə bağlı daha dərin biliklərə malik olmaları üçün çox vacibdir. Tədris prosesi zamanı namizədlər bir daha müvafiq bilik yoxlamalarından keçirlər. Bir il sonra müsbət xasiyyətnamə (rəy) almış şəxslər müvafiq vəzifələrə təyin olunur və onlara rütbələr verilir.

***- Vergilər Nazirliyi həyata keçirdiyi kadr siyasətində nazirliyin insan resurslarının inkişafı strategiyasına əsaslanır. Bu strategiya kadr hazırlığı prosesində özünü doğruldurmu?***

- Hər bir sahədə, o cümlədən vergi sistemində görülən işlərin, həyata keçirilən islahatların uğurla nəticələnməsi insan resurslarının, kadr potensialının düzgün idarə edilməsindən asılıdır. Bu baxımdan, Vergilər Nazirliyi kadr potensialını gücləndirmək məqsədilə 2005-ci ildə «Dövlət vergi orqanlarında insan resurslarının inkişafı strategiyasının Konsepsiyası»nı qəbul etmişdir. Hazırda vergi orqanlarının kadr hazırlığı prosesi bu konsepsiya əsasında həyata keçirilir. Eyni zamanda, Vergilər Nazirliyinin 12 dekabr 2010-cu il tarixli əmri ilə təsdiq edilmiş «2011-ci il üzrə dövlət büdcəsinin icrası və Vergilər Nazirliyinin qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edən Tədbirlər Planı»nda və Vergilər Nazirliyinin Kollegiyasının 2 fevral 2011-ci il tarixli qərarında nazirliyin İnsan resursları idarəsinin qarşısına vergi orqanı əməkdaşlarının vaxtaşırı rotasiyası, vəzifələr üzrə kadr ehtiyatının yaradılması, kadrların yenidən hazırlanması, onların bilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsinin təmin edilməsi və fəaliyyətində fərqlənən işçilərdən ibarət rəhbər vəzifəli şəxslər və sahələr üzrə işçi heyəti üçün vəzifədə irəli çəkilmə məqsədi ilə kadr (menecer) ehtiyatının yaradılması vəzifəsi qoyulmuşdur.

Bu gün Vergilər Nazirliyinin kadr siyasətinin əsas istiqaməti kadr potensialının gücləndirilməsi təşkil edir. Son illər bu istiqamətdə rəhbərlik tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bir cox vəzifələrə gənc nəslin nümayəndələri seçilmişlər. Görülən işlər nəticəsində hazırda vergi orqanlarında kadr potensialının mühüm hissəsini gənc və orta yaş qrupları təşkil edir. Belə ki, bu gün vergi orqanlarında çalışanların 87 nəfəri 25, 812 nəfəri 25-dən 35-ə, 1306 nəfəri isə yaşı 35-dən yuxarı olan işçilərdir.

***- Son illər Vergilər Nazirliyində kadrların peşə hazırlığı və ixtisaslarının artırılması sahəsində görülən işlər barədə məlumat verərdiniz...***

- Vergilər Nazirliyi kadrların təkmilləşdirilməsi sahəsində kifayət qədər müsbət təcrübəyə malikdir. Vergi xidməti əməkdaşlarının peşəkarlıq səviyyələrinin artırılması məqsədilə onlar müxtəlif tədris proseslərinə, seminarlara, treninqlərə, xarici ölkələrdə müxtəlif kurslara cəlb olunurlar. Daha bacarıqlı, öz işini mükəmməl bilən kadrlar önə çəkilir, onlara məsul vəzifələr tapşırılır.

Həyata keçirilən islahatların daha səmərəli olması kadrların peşəkarlıq səviyyəsindən birbaşa asılı olduğu üçün siyasətimiz kadr potensialının daim gücləndirilməsi və peşəkar işçilərin bu sistemə cəlb olunmasından ibarətdir. Vergilər Nazirliyinin Tədris Mərkəzi bu istiqamətdə həyata keçirilən işlərdə mühüm rola malikdir.

**Arzu İBRAHİMOVA**

# Tədris Mərkəzində «dəyirmi masa» keçiriləcək

İyun ayının 28-də Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində «2020 - Gələcəyə baxış Konsepsiyasında vergi siyasətinin rolu» mövzusunda «dəyirmi masa» keçiriləcəkdir. Tədbirdə nazirliyin rəhbər vəzifəli şəxslərinin və respublikanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı nəzərdə tutulur.

«Dəyirmi masa» iştirakçıları əvvəlcə yaranmasının 10 ili tamam olan Tədris Mərkəzinin müasir standartlara cavab verən yeni inzibati binası ilə tanış olacaq, mərkəzin fəaliyyətinə həsr olunmuş filmi izləyəcəklər.

Tədbirdə vergilər nazirinin birinci müavini Natiq Əmirovun açılış nitqi ilə çıxış etməsi nəzərdə tutulur. Daha sonra «dəyirmi masa» iştirakçıları nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayevin «2020 - Gələcəyə baxış Konsepsiyasında vergi siyasətinin rolu» və vergilər nazirinin müşaviri Ələkbər Məmmədovun «Vergi sistemində insan resurslarının inkişafında təlim və tədrisin yeri» mövzusunda təqdimatları ilə tanış ola biləcəklər.

Təqdimatlardan sonra mövzular ətrafında müzakirələrin aparılması nəzərdə tutulur.

# Dünənə baxanda...

## *Müsahiblərimiz Tədris Mərkəzinin ilk məzunlarıdır*

**Rəşad Əliyev,**
*Bakı Şəhər Vergilər Departamentinin rəis müavini:*



- Mən çox şadam ki, qabaqcıl texnologiyalarla, müasir əsaslarla idarə olunan bu Tədris Mərkəzinin ilk məzunlarından olmuşam. Bunu xüsusilə qeyd etmək istərdim ki, Vergilər Nazirliyinin qısa müddət ərzində öz işçiləri üçün belə gözəl şərait yaratması kadr hazırlığına göstərilən diqqətdən, etimaddan və bu etimad əsasında əldə olunan uğurlardan xəbər verir.

Hazırda Vergilər Nazirliyi sistemində tədris uğurla həyata keçirilir. Yüksək hazırlıqlı kadrların yetişdirilməsi və inkişaf etdirilməsi Vergilər Nazirliyinin müasir əsaslarla idarə olunmasına, menecmentin günün tələbləri səviyyəsində tətbiq edilməsinə və dünya praktikasının mənimsənilməsinə xidmət edir. İqtisadiyyatımızın elmi əsaslarla inkişafı ən vacib məsələlərdəndir. Elə vergi sistemində də qazanılan uğurların əsasında bu məsələ dayanır. Vergilər Nazirliyi öz güclü kadr ehtiyatları ilə dövlətimizin və dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayır.

**İlkin Həsənov,**
*İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin idarə rəisi:*



- Tədris Mərkəzinin ilk kurslarının dinləyicilərindən biri kimi burada yiyələndiyim nəzəri biliklər iş həyatımda mənə çox faydalı olmuşdur. Beynəlxalq təcrübədə sınanmış və ən müasir standartlara cavab verən tədris texnologiyalarından istifadə edilməklə tədris olunan materialların nəzəri və praktik cəhətdən izah olunaraq dinləyicilərə çatdırılması vergi əməkdaşlarının iş prosesində qarşılaşdığı çətinliklərin həllində öz müsbət səmərəsini verməkdədir.

Ötən müddət ərzində Tədris Mərkəzi sürətlə inkişaf etmiş, daha da modernləşdirilmişdir. Azərbaycan Prezidentinin Şamaxıda təbiətin qoynunda, səfalı bir guşədə mərkəzin yeni binasının açılışında iştirakı ölkə rəhbərliyinin dövlət qulluqçularının peşə hazırlığına, biliklərinin artırılmasına verdiyi böyük önəmdən xəbər verir. Dövlət başçısının açılış mərasimində söylədiyi fikirlər və mərkəzin fəaliyyətini müsbət xarakterizə etməsi hər bir vergi əməkdaşı kimi məni də çox sevindirir.

# Elektron təlim xidmətləri

Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) yaradılan imkanlardan və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə vergi orqanlarının əməkdaşları tərəfindən qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi, Vergilər Nazirliyinin strateji məqsədlərinin tam mənimsənilməsi və vergi inzibatçılığı proseslərinin yüksək səviyyədə həyata keçirilməsinin təmin olunması məqsədilə Vergilər Nazirliyinin Tədris Mərkəzində ənənəvi təhsil formaları ilə yanaşı, elektron və kombinə edilmiş (ənənəvi və elektron təhsil formalarından birgə istifadə olunmaqla) təhsil formalarından istifadə olunur. Təhsilin bu formalarının həyata keçirilməsi üçün AVİS-də müvafiq altsistem yaradılmışdır.

Elektron təhsil internet və saytlardan istifadə etməklə təhsil materiallarının mənimsənilməsi üsulu olub, auditoriya daxilində təhsilin məhdudiyyətlərini aradan qaldırmağa kömək edərək çoxsaylı istifadəçilər cəlb etməyə, kursların təkmilləşməsini vaxtında və çevik şəkildə həyata keçirməyə, fərdi təlim proqramı seçməyə imkan verir. Təhsilin səmərəliliyini artırmaq məqsədilə e-təhsil aşağıdakı hazırlıq üsulları vasitəsilə dinləyiciləri prosesdə fəal iştirak etməyə cəlb edir:

***- sinxron olmayan (nə vaxt, nə də məkan etibarilə) özüöyrənmə üsulu:*** dinləyici elektron təhsilin onun ixtiyarına verdiyi və nəzəri cəhətdən öyrənə biləcəyi materiallara malikdir.

***- sinxron öyrənmə (məkan deyil, yalnız vaxt məhdudiyyəti olan):*** təlimçilər və dinləyicilər virtual otaqlarda görüşürlər.

***- əməkdaşlıqla öyrənmə:*** məlumatların ötürülməsi, forum, bloq və çatlarla həyata keçirilir.

Kombinə edilmiş təhsil forması eyni bir təhsil təşəbbüsü daxilində həm sinif hazırlığı, həm də elektron təhsil metodunu istifadə edir. Bu təhsil kurslarının təlimçiləri təkcə biliköturücü ekspertlər deyil, həmçinin multimedia vasitələri və dili ilə mənimsəmə yollarını idarə etmək bacarığına malik şəxslərdir. Bu iki üsulun qarşıq halda tətbiqi vaxta qənaət edilməsi ilə yanaşı, həm də auditoriyadaxili görüşlərin daha faydalı olmasına şərait yaradır.

Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Aysu Məmmədova bildirir ki, distant təhsil ənənəvi tədris sistemi ilə müqayisədə hər təhsil alana çəkilən xərci bir neçə dəfə azaldır və bunun hesabına təhsilin keyfiyyətini qoruyub saxlamaqla onun tamamilə yeni səviyyəsini təmin edir: «Məlum olduğu kimi, mövcud ənənəvi təhsil sistemləri tədricən virtuallaşır. İnkişaf etmiş ölkələrdə İKT-nin təhsilə geniş tətbiqi yaxın gələcəkdə bu ölkələrin virtual xarakterli təhsil sistemlərinə keçəcəklərini göstərir. Bu sahədə vahid standartlar yoxdur. Hər ölkə bu məsələni öz maraqları çərçivəsində həll etməyə çalışır.



Bu gün qlobal təhsil məkanında kombinə edilmiş təhsilin pedaqoji və iqtisadi səmərəsi xüsusilə qeyd olunur. Kombinə edilmiş təhsil səmərəli, innovativ bir təhsil texnologiyası kimi qəbul edilir.

Vergi xidməti orqanlarının əməkdaşları üçün iqtisadiyyatın müxtəlif sahələri və fəaliyyət növləri üzrə vergitutma problemləri, habelə funksional istiqamətlər üzrə vergi inzibatçılığının tətbiqi məsələləri ilə bağlı təlim kursları kombinə edilmiş təhsil forması tətbiq edilməklə keçilir. Bu sistemin tətbiqi ilə tədris kurslarının təşkili Qaydaları vergilər nazirinin əmri ilə təsdiq edilib. Kombinə edilmiş təhsil sistemi tətbiq edilməklə ixtisasartırma kurslarının ümumi davametmə müddəti 1,5 ayadək, ilkin hazırlıq kurslarının ümumi davametmə müddəti isə 3 ayadək müəyyən edilir.

İxtisasartırma kurslarının müddətinin ilk 3 iş günü və son 2 iş günü, ilkin hazırlıq kurslarının isə ilk 24 iş günü və son 4 iş günü ənənəvi (auditoriyada) təhsil formasında, qalan müddət isə dinləyicilərin iş yerlərində məsafədən (distant) təhsil sistemi tətbiq edilməklə aparılır. Bu zaman təsdiq edilmiş tədris-mövzu planlarına uyğun hazırlanmış tədris materialları xüsusi proqram təminatından istifadə edilməklə AVİS çərçivəsində bilavasitə dinləyicinin iş yerinə göndərilir».

Vergi orqanlarına işə yeni qəbul edilən əməkdaşlar üçün ilkin hazırlıq kursları 2010-cu ilin əvvəlindən başlayaraq elektron təhsil forması tətbiq edilməklə aparılır. Təkcə 2011-ci ildə ilkin hazırlıq kurslarına cəlb edilmiş 150-yə yaxın stajçı əməkdaş iki ay ərzində elektron təhsilin kombinə edilmiş təhsil formasından istifadə etmişdir.

Təhsil kurslarının sonunda dinləyicilərin bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsi müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməklə aparılır: bu kursları bitirmiş dinləyicilərin bilik səviyyəsinin qiymətləndirilməsi həm bilavasitə onların iş yerlərində, həm də Tədris Mərkəzində real vaxt (onlayn) rejimində həyata keçirilir.

**Arzu İBRAHİMOVA**

# MÜASİR TƏLİM VƏ TƏDRİS OCAĞI

**Mirəli KAZIMOV,**
*Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəis müavini*

10 yaşını qeyd edən Azərbaycan Respublikası Vergilər Nazirliyi Tədris Mərkəzinin fəaliyyətinin əsas istiqamətləri vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artırılmasından, vergi orqanlarında kadr siyasətinə dair təkliflərin işlənib hazırlanmasından, vergi sisteminin formalaşdırılmasından, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılmasından ibarətdir.

Mərkəzdə ümumi tədris prosesinin təşkili istiqaməti aşağıdakı ardıcıllıqla həyata keçirilir *(struktur)*:

Statistikaya nəzər salsaq, 2003-2012-ci illər ərzində ənənəvi (auditoriyada) təlim metodu tətbiq etməklə orta hesabla 1383 nəfər, kombinə edilmiş təlim metodu tətbiq etməklə 264 nəfər, real vaxt rejimində məsafədən (distant) təlim metodu tətbiq etməklə 18 nəfər dinləyici ixtisasartırma kurslarında iştirak etmişdir.

2003-2012-ci (6 ay) illər ərzində Tədris mərkəzində 95 ixtisasartırma kursu, 38 ilkin hazırlıq kursu və 90 qısamüddətli (1-5 günlük) treninqlər və seminar-məşğələlər keçirilmişdir. Bu tədris kurslarında müvafiq olaraq 1665, 763 və 1800 nəfər vergi orqanı əməkdaşı dinləyici kimi iştirak etmişdir. Qeyd olunan müddət ərzində Mərkəzdə aparılmış tədris kursları və treninqlərin, habelə adam-günlərin, eləcə də iştirak edən əməkdaşların sayı haqqında məlumat diaqram şəklində göstərilir *(diaqram 1, diaqram 2, diaqram 3)*.

Mərkəzin elmi-pedaqoji kadrlarının hazırlanması və ixtisaslarının artırılması qanunvericiliklə nəzərdə tutulmuş qaydada, aparıcı təhsil və elmi-tədqiqat idarə və təşkilatlarına, dövlət hakimiyyəti orqanlarına təcrübə keçmək üçün göndərilməsi, müxtəlif sahələr üzrə aparıcı mütəxəssislərin iştirakı ilə konfrans və seminarların təşkil edilməsi yolları ilə həyata keçirir. Hazırda mərkəzdə çalışan kollektivin hər bir üzvü səviyyəli və peşəkar əməkdaş olmaqla yanaşı, təlim prosesinə müsbət təsir göstərən böyük pedaqoji təcrübəyə malikdir. Əməkdaşlar beynəlxalq və respublika səviyyəsində təşkil olunan elmi-praktiki konfranslarda, seminarlarda, təlimçilərin treninqlərində iştirak edərək daim öz elmi və pedaqoji potensialını artırırlar. Onların arasında iqtisadiyyat üzrə altı, fizika-riyaziyyat üzrə bir fəlsəfə doktoru, o cümlədən üç doktorant və bir dissertant var.

Bu gün Tədris Mərkəzinin Şamaxı şəhərində yerləşən yeni inzibati binasında təlim və tədris kursları yüksək keyfiyyətlə davam etdirilir, beynəlxalq tədbirlər uğurla həyata keçirilir. 2011-ci ilin ortalarından etibarən müsabiqə yolu ilə dövlət vergi orqanlarına işə yeni qəbul edilən stajçı əməkdaşlar üçün kombinə edilmiş təhsil sistemi tətbiq edilməklə 6 ilkin hazırlıq kursu, «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə: nailiyyətlər və perspektivlər» mövzusunda beynəlxalq konfrans, həmçinin ilk dəfə olaraq Telefon-məlumat xidmətinin əməkdaşları üçün fərdi illik treninq proqramı əsasında ixtisasartırma kursu həyata keçirilmişdir. Bundan əlavə, vergi sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı normativ sənədlərin dövlət vergi orqanlarının vergi ödəyicilərinə xidmət və vergi ödəyicilərinin qeydiyyatı funksional istiqamətlərində fəaliyyət göstərən əməkdaşları tərəfindən tam mənimsənilməsinin və onların vergi ödəyicilərinə çatdırılmasının təmin edilməsi məqsədilə «Kommersiya hüquqi şəxslərin e-qeydiyyatının və elektron ödəniş sisteminin tətbiqi» mövzusunda təlimçilərin treninqi, habelə «Dövlət satınalmalarına vergi nəzarətinin metodiki tövsiyələri», «Dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satınalınması üzrə bağlanmış müqavilələr barədə» yenilənmiş məlumat forması və onun tərtib edilmə qaydaları ilə bağlı treninq təşkil edilmişdir. Eyni zamanda, inzibati ərazilər üzrə kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilmiş vergi güzəştlərinin həcminin müəyyən edilməsi ilə bağlı, həmçinin «Əmək qanunvericiliyinin tətbiqi» mövzusunda, habelə yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi sahəsində bələdiyyələrə metodiki köməkliyin göstərilməsi məqsədilə vergi orqanları əməkdaşları üçün «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi» mövzusunda 2 günlük təlimçilərin, eləcə də «Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri» mövzusunda treninqlər keçirilmişdir.

Hazırda mərkəzin kollektivi nazirliyin rəhbərliyinin dəstəyi ilə qloballaşan dünyada vergitutmanın aktual məsələləri ilə bağlı beynəlxalq simpozium və konfransların, o cümlədən aidiyyəti üzrə digər tədbirlərin həyata keçirilməsi istiqamətində yeni layihələr üzərində çalışır. Şübhəsiz ki, bu tədbirlərin hamısı dinamik sosial-iqtisadi inkişafını uğurla davam etdirən Azərbaycan Respublikasının regionda liderlik mövqeyinin və beynəlxalq imicinin daha da möhkəmləndirilməsinə, o cümlədən vergi sahəsində əldə olunan nailiyyətlərin beynəlxalq səviyyədə nümayiş etdirilməsinə xidmət edəcəkdir.

Struktur




Diaqram 1. Tədris kursları və treninqlərin sayı




Diaqram 2. Tədrisə sərf olunan adam-günlərin sayı




Diaqram 3. Tədris kurslarında və treninqlərdə iştirak edən əməkdaşların sayı




## Nailiyyətlər yüksək qiymətləndirilir

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) tövsiyələrindən biri quruma üzv olan ölkələrin vergi orqanı əməkdaşlarının təlim-tədris prosesinin ən müasir tələblər səviyyəsində qurulması ilə bağlıdır. Təşkilat hesab edir ki, vergi administrasiyaları öz işçilərinin peşə hazırlığının artırılmasına xüsusi diqqət yetirməli, kadrların hazırlanması və inkişafı üçün təşkil olunan təlim-tədris proqramlarının keyfiyyətini və səmərəliliyini təmin etməli, təlimin müasir formada təşkilini həyata keçirməlidir. Təlim prosesində yeni strateji istiqamətlər və yanaşmalara geniş yer verilməldir.

IOTA-nın bir müddət əvvəl Romada keçirilən 9-cu Təlim Forumunda vergi orqanlarının tədris prosesinin yaxşı təşkil olunması baxımından Azərbaycan, Avstriya və İtaliyanın tədris müəssisələrinin vəziyyəti müsbət qiymətləndirilib. Çıxışlar zamanı bu ölkələrdə vergi orqanlarında tədrisin müasir formada təşkil olunması, müasir biliklərin genişləndirilməsi və digər tədbirlərin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, təlim prosesində tətbiq edilən yeni informasiya texnologiyaları, metod və üsullar müasir tələblər səviyyəsində qurulub.

Tədbirdə Azərbaycanın Vergilər Nazirliyinin Tədris Mərkəzi vergi orqanları əməkdaşlarının peşə hazırlığı, ixtisaslarının artırılması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair araşdırmalar, kadr siyasəti, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılması ilə bağlı sistemli tədbirlər həyata keçirən elm və təhsil ocağı kimi qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, mərkəzdə təşkil olunan kurslar vergi əməkdaşlarının ən müasir tədris üsullarını və informasiya texnologiyalarını mənimsəməsinə və bunun idarəetmədə tətbiq edilməsinə səbəb olur. Qeyd edək ki, tədris müəssisəsində ixtisasartırma və ilkin hazırlıq kursları ənənəvi, kombinə edilmiş və elektron təhsil sistemi tətbiq edilməklə təşkil olunur.

İtaliyanın Gəlirlər Agentliyinə məxsus Ferrara şəhərində yerləşən Təlim Mərkəzi, Avstriyanın Vyana şəhərindəki Vergi Administrasiyasının Tədris Korpusu və Azərbaycanın Şamaxı rayonundakı Tədris Mərkəzi ən son texniki imkanlara malikdir. Vergi orqanlarının təlim və tədrisi, müasir dövrün tələblərinə uyğun kadr hazırlığı, onların bilik və bacarıqlarının artırılması, tədris prosesində yeni texnologiyaların tətbiq olunması, sosial şəbəkələrdə, ayrı-ayrı ölkələrdə təlim prosesində istifadə edilən yeni metod və üsulları qeyd olunan təhsil müəssisələrinin başlıca fəaliyyət istiqamətləridir.

## İYUN

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

## vergi təqvimi

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**20 iyun** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

## krossvord




**Soldan sağa:** 1.Qonşu ölkə; 4.Gələcəyi xəbər verən; 8.Hər hansı bir xidmətdən istifadə edən fiziki və ya hüquqi şəxs; 9.Qırğızıstanda inzibati ərazi vahidi; 10.Danışıq qabiliyyətini itirən şəxs; 12.«Bəxtiyar» filmində Qurban obrazını canlandıran aktyorun adı; 13.İsveçrənin paytaxtı; 16.Məclisi aparan; 17.Qazax xalq çalğı aləti; 20.Avtomobil markası; 21.Elektrik yüklənmiş atom və ya molekul; 22.Azərbaycan mətbəxi nümunələrindən biri; 24.Başqırdıstan Respublikasının paytaxtı; 25.Yazı materialı kimi e.ə. 3-cü minilliyin əvvəllərində qədim Misirdə ixtira olunmuş çoxillik ot bitkisi; 27.«Üç muşketyor»dan biri; 28.Gənclər və idman nazirinin adı.

**Yuxarıdan aşağı:** 2.Azərbaycan teatr və kino sənətinin korifeylərindən biri (adı) (1894-1980); 3.Təsirsiz təkatomlu qaz; 4.U.Şekspirin pyesi; 5.Auditor yoxlamasının son yekun sənədi; 6.Əşyalardan əks olunan səs dalğalarının və ya radiodalğaların qeydə alınması, onların yerinin, forma və ölçülərinin təyin edilməsi cihazı; 7.Fəaliyyətin əvvəlcədən düşünülməsi; 9.Sovet şahmatçısının soyadı. Beynəlxalq qrossmeyster (1952) və arbitr (1969); 11.Braziliyanın şimalında, Para ştatında yaranmış musiqi cərəyanı və rəqsi; 14.Hər tərəfdən su ilə əhatə olunmuş quru torpaq sahəsi; 15.Rəngsiz, boz və ya qırmızı amorf maddə; 18.Tamaşa biletlərinin tam satılması; 19.Fəzada istiqaməti təyin etmək üçün cihaz. XI əsrdə Çin alimi Şen Qua onun bir neçə növünü icad edib; 20.Qarnir və ya əsas yemək üçün duru ədviyyat; 23.Taxıl növü; 25.Şahmatda heç-heçə; 26.Qədim Misir mifologiyasında ağıl və müdriklik ilahəsi.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.Annan; 4.Katet; 6.Debitor; 8.Audit; 10.Şaman; 12.Araz; 13.Uşu; 14.Anar; 15.Haiti; 17.Frank; 20.Raymond; 21.Rebus; 22.Armud.
**Yuxarıdan aşağı:** 1.Aorta; 2.Nabat; 3.Vatt. 4.Kuruş; 5.Turin; 7.Kamança; 9.Dualizm; 11.Oşa; 15.Homer; 16.İdris; 17.Flora; 18.Katod; 19.Ayna.

Vergilər Nazirliyinin kollektivi İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinova, atası **Telman müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi Şuşa Rayon Vergilər Şöbəsinin rəisi Mübariz Fərzəliyevə, əzizi **Ataş müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi 2 saylı ƏVİ-nin əməkdaşı Esmira Haqverdiyevaya, əzizi **Səkinə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi Şuşa Rayon Vergilər Şöbəsinin bölmə rəisi Cəlal Cabiyevə, əzizi **Əhliyat müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi Şuşa Rayon Vergilər Şöbəsinin əməkdaşı Zaur Cavanşirova, nənəsi **Suqən xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.

**Tiraj: 16000**

# Hər binanın öz memarı

müasir memarlıq



Günbəzdən Tədris Mərkəzinə bol işıq düşür...

Tikilən, qurulan, daim dəyişən və yeniləşən zəmanəmizin sürətli inkişafı, ölkəmizin iqtisadi yüksəlişi bir çox başqa amillərlə yanaşı, özünü həm də inşa olunan binalarda, memarların yaratdığı bir-birindən fərqli daş əsərlərdə ifadə edir. İndi gözümüzün önündə araya-ərsəyə gələn binaların çoxu bu gündən sabaha maraqlı bir mədəniyyət tarixi daşıyır...

Vergilər Nazirliyinin dağlar qoynunda qərar tutmuş Tədris Mərkəzinin binası da bu günümüzün tarixinə şahidlik edən daş abidələrdəndir. Özünün funksional müxtəlifliyinə və landşaft elementlərinə görə diqqəti cəlb edən binanın memarı Fəxrəddin Verdiyev ilə görüşümüzün əsas məqsədi binanın memarlıq xüsusiyyətləri barədə qısaca məlumat almaq idi. Söhbət zamanı o da məlum oldu ki, Tədris Mərkəzinin binası Fəxrəddinin ilk irihəcmli işidir. «Elə tikililər var ki, onların memarlığı binaya kənardan baxmağa üstünlük verir. Bina tikildiyi yerdə yeni və fərqli bir mənzərə, möhtəşəmlik yaradır, - Fəxrəddin qarşımızdakı şəkillərlə dediklərini əyani izah etməyə çalışır. - Biz isə Şamaxının, Pirqulu dağlarının təbii landşaftını, qeyri-adi mənzərəsini nəzərə alıb, çalışdıq ki, tikdiyimiz bina ətraf mühitin «sakitliyini pozmasın», orada nəzərə çarpan dəyişiklik yaratmasın. Ona görə də mərtəbələrin sayını mümkün qədər az etməyə çalışdıq. Fikir versəniz, Tədris Mərkəzinin binası üçün aparıcı ideya içəridən çölə baxmaq üzərində cəmləşdirilib. Yəni binanı layihələşdirərkən ona üstünlük vermişik ki, Mərkəzin içərisinə daxil olan hər kəs burada Pirqulu dağlarının təbii mənzərəsindən təcrid olunmasın, özünü mümkün qədər bu əsrarəngiz mənzərənin içərisində hiss edə bilsin. Bu məqsədlə əsas girişdə və binalar arasındakı keçidlərdə şüşədən daha çox istifadə olunub. Onu da deyim ki, sərt dağ iqlimi şəraitində şüşədən ifrat şəkildə istifadə etmək məqsədəuyğun olmadığına görə, biz bu elementi «xəsisliklə» işlətmək məcburiyyətində idik. Keçən qışın sərt sınağı göstərdi ki, Tədris Mərkəzinin binası öz funksiyalarını uğurla yerinə yetirməklə yanaşı, həm də memarlıq baxımından sınaqdan pis çıxmadı», - Fəxrəddin bildirir...

Klassik memarlıq üslubu ilə müasir üslubun sintezi əsasında yaradılmış binada günbəz elementinə üstünlük verməsini Fəxrəddin belə izah edir: «Adətən, təhsil ocaqlarının binalarında uzun, qaranlıq dəhlizlər arzuedilməz darıxdırıcı təəssürat yaradır. Bunu aradan qaldırmaq üçün Tədris Korpusunun dəhlizlərini aşağıdan sütunlara söykənən günbəzlərlə bölməyi qərara aldıq. Günbəzlər həm içəriyə bol işıq düşməsinə imkan verir, həm də binanın içərisində genişlik yaradır, bayırla içəri arasında təbii ahəngdarlığı təmin edir».

Onu da qeyd edək ki, Fəxrəddin Verdiyev 2010-cu ilin yekunlarına görə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən «İlin gənc memarı» adına layiq görülüb. Fəxrəddinin bu mükafatı almasında Tədris Mərkəzinin binasının layihəsinin xüsusi yeri var...

# Rənglərin şeiriyyəti

şedevrlar



Səttar Bəhlulzadə. **«Şamaxı üzümlükləri».**

Azərbaycan torpağının rənglərini şeir dili ilə canlandırmağa nail olmuş Xalq rəssamı Səttar Bəhlulzadənin (1909-1974) yaradıcılığında Şamaxı ayrıca yer tutur. Rəssamın «Şamaxı üzümlükləri» və «Qədim Şamaxı» əsərləri Azərbaycan rəngkarlığının ölməz abidələrindəndir. Diqqətinizə təqdim etdiyimiz «Şamaxı üzümlükləri» əsəri şeiriyyətlə coşub-daşan rənglərin xoş ahəngini əks etdirir. Təsviri sənətimizdə yeni və unudulmaz səhifələr yaratmış S.Bəhlulzadə doğma təbiətimizi tərənnüm edən istedadlı mənzərə ustalarımızdan biridir. Öz vətəninin gözəlliklərinə valeh olan bu rəssam Azərbaycan təbiətinə həsr edilmis yüzlərlə mənzərə çəkmişdir. S.Bəhlulzadənin mənzərələrində biz Azərbaycan təbiətinin zəngin məzmunlu, əsl poetik obrazını görürük. Rəssam yaratdığı tablolarda təbiətin müxtəlif hadisələrini və rəngarəng gözəlliyini inandırıcı boyalarla verir. O, təbiətin coşqun sevincini, güllü baharını və həzin xəzan günlərini dərin bir həssaslıqla əks etdirir. Zəngin məzmuna malik yaradıcılığı olan dahi sənətkar öz mənzərələrində yalnız müəyyən bir «əhval-ruhiyyə» verməklə kifayətlənmir, hər hansı bir mənzərəyə baxarkən tamaşaçını mürəkkəb və dərin həyəcanlar keçirməyə sövq edir. Bu isə Səttar Bəhlulzadənin mənzərələrindən alınan təsviri daha qüvvətli və daha dolgun edir. Rəssamın mənzərə əsərlərində təbiət təsvirləri sükunət vəziyyətində deyil, daimi hərəkətdə və canlı verilir. Onlarda bəzən sevinc içərisində lirik bir kədər, kədər içərisində isə təbiətin öz gözəlliyində zühur edən həyat eşqi duyulur. S.Bəhlulzadə təbiətə sənətin gözü ilə baxır. O, həyata, canlı təbiətə daha fəal nüfuz etməyi bacarır. Bu baxımdan «Xəzərdə axsam çagı», «Torpağın arzusu», «Oyanma», «Kəpəzin göz yası», «Tut ağacları», «Əbədi məşəl», «Qüdrətli ağac» tablolarının hər birində qırılmaz vəhdətdə birləşdirilən zəngin kolorit ayrıntıları daha ifadəlidir. Vətən torpağının gözəllik timsalı kimi tərənnümü S.Bəhlulzadənin tam bir silsilə tablolarının ana xəttini təşkil edir. Onun «Sərv ağacları», «Samaxı üzümlükləri», «Laza kəndinin şəlalələri», «Qədim Şamaxı», «Şahnabat səlalələri», «Bilgəh», «Çiçəklənən ağaclar», «Gəncə çinarları», «Çiçəklənən badam ağacı», «Buzovna bülluru» və digər lövhələri dekorativ boyalar aləmində Səttar fırçasının əbədi silinməz izlərini yaşadır.

# Astrofizika Rəsədxanası

elm



Vergilər Nazirliyinin Tədris Mərkəzinə yolu düşən hər kəsin burada diqqətini çəkən ünvanlardan biri də qonşuluqdakı Şamaxı Astrofizika Rəsədxanasıdır. Bu obyekt Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190-200-ə çatır.

Rəsədxana kompleksi daxilində qısa müddət ərzində Yusif Məmmədəliyev adına yaşayış qəsəbəsi və iş binaları tikilmiş, 2 metrlik teleskop, üfüqi Günəş teleskopu, AZT-8, AST-452, Seys-600 və başqa elmi cihaz və avadanlıqlar quraşdırılmışdır.

Rəsədxana AMEA tərəfindən təsdiq olunmuş elmi proqram əsasında fəaliyyət göstərir. Proqram dünya elminin ən qabaqcıl və prioritet problemləri ilə uzlaşdırılmışdır. Rəsədxananın fəaliyyəti çərçivəsində qalaktikaların, ulduzların, planetar dumanlıqların, günəşin, planetlərin və kometaların müşahidəsi aparılır.

Şamaxı Astrofizika Rəsədxanasında üç əsas istiqamətdə elmi işlər görülür: ulduzlar fizikası, Günəş sistemi cisimlərinin dinamikası və fizikası, Günəş fizikası. Günəş fizikası sahəsində əsas elmi nəticələr Günəş alışmalarının inkişafı, maqnit sahəsi və Günəş atmosferinin incə quruluş əlaqələri üzrə əldə olunmuşdur. Beynəlxalq və xüsusi proqramlar üzrə patrul müşahidələri aparılmışdır. Ulduz fizikası sahəsində qeyri-stasionar, dəyişən və qoşa sistem ulduzları, maqnit və geniş örtüklü ulduzlar, super sıxlıqlı ulduzlar tədqiq olunmuşdur. Günəş sistemi cisimləri fizikası və dinamikası sahəsində planetlər və onların peykləri tədqiq olunmuşdur.

# Həsən bəy Zərdabi

söz vaxtına çakar



Bu gün Azərbaycan tarixində mühüm yeri olan, milli teatrımızın və mətbuatımızın yaradıcısı, Şirvan torpağının yetirməsi Həsən bəy Zərdabinin anadan olmasının 170 illiyi tamam olur. 1842-ci il iyun ayının 28-də keçmiş Göyçay qəzasının Zərdab kəndində anadan olmuş Həsən bəy ilk təhsilini mollaxanada almış, sonra Şamaxı qəza məktəbində oxumuş, orta təhsilini isə Tiflisdə tamamlamışdır. 1861-ci ildə Moskva Universitetinə daxil olan Həsən bəy dörd il sonra həmin universitetin təbiət-riyaziyyat fakültəsini bitirmişdir.

Bir müddət Tiflisdə qulluq edəndən sonra Qubada məhkəmədə işləyən Zərdabi daha sonra Bakıya gələrək burada rusca orta məktəbdə təbiətdən dərs deməyə başladı. O zaman Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı milli mətbuatımızın yaranması zərurətini doğurdu. Doğma ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etdi. Bununla əlaqədar böyük əzab-əziyyətdən sonra 1875-ci il iyulun 22-də Bakıda qubernatorun mətbəəsində Azərbaycan dilində «Əkinçi» qəzetinin nəşrinə müvəffəq oldu. Bu mətbu orqanla milli mətbuatımızın əsası qoyuldu. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən «Əkinçi» ayda iki dəfə 300-400 tirajla nəşr olunurdu. Cəmi 56 nömrəsi çıxmış «Əkinçi» qəzetində Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin Moskvadan, Məhəmmədtağı Əlizadə Şirvaninin Şamaxıdan, Heydərinin Dərbənddən göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin «Vəkili-naməlumi millət» imzası ilə məqalələri dərc olunurdu.

1880-ci ildən başlayaraq Həsən bəy doğma kəndi Zərdabda yaşamağa başladı. O, kənd təsərrüfatı sahəsində kəndlilərə məsləhətlər verir, məqamı yetişəndə yerli camaata öz maarifpərvər, demokratik ideyalarını da çatdırırdı. Bakıdan kənarda yaşamasına baxmayaraq, Zərdabi yenə də mətbuatda fəal iştirak edirdi: 1880-1890-cı illərdə naşirin Bakıda və Tiflisdə çıxan «Ziya», «Kəşkül», «Kaspi», «Novoye obozreniye» və s. qəzetlərdə Azərbaycan və rus dillərində çoxlu elmi-kütləvi məqalələri nəşr olunmuşdur. Həyatının son illərində Zərdabi Bakı şəhər Dumasında maarif şöbəsində rəsmi vəzifədə çalışaraq Bakı və ətraf kəndlərdəki məktəblərə başçılıq edirdi. 1906-cı ildə Bakıda keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayında fəal nümayəndələrdən biri də qocaman maarif xadimi, görkəmli mütəfəkkir Zərdabi olmuşdur.

Gərgin elmi fəaliyyətlə məşğul olan Həsən bəy Zərdabi iflic xəstəliyinə tutuldu və 1907-ci il noyabrın 28-də vəfat etdi. O, 1907-ci ildə köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunsa da, 1937-ci ildə həmin ərazi dağıdılır. Sümüklərini bir neçə il ailəsi saxlayıb. Nəhayət, Həsən Bəy Zərdabinin vəfatının 50 illik yubleyi qeyd olunarkən onun sümükləri Fəxri xiyabanda dəfn olunmuşdur.

# Şamaxı xalçaları

madaniyyat tarixi

XV əsrdə yaşayıb-yaratmış Niderland rəssamı Hans Memlinq məşhur tablolarından birində Müqəddəs Məryəm ananın ayaqları altında Şamaxı xalçasının təsvirini vermişdir. Bu, Şamaxı, eləcə də Azərbaycan xalçalarının hələ orta əsrlərdə Avropada məşhur olduğunu və onlara yüksək qiymət verildiyini, müqəddəslik nişanəsi kimi yanaşıldığını sübut edir...



«Cəmcəmli» xalçası

Şamaxı xalçalarının mənsub olduğu Şirvan xalçaçılıq məktəbi özünəməxsus naxışları ilə seçilir. Azərbaycanın qədim tarixi bölgələrindən olan Şirvanda xalçaçılıq sənətinin rəngarəng və çaxçalarlı olması yerli əhalinin həm oturaq, həm də yarımköçəri həyat tərzi ilə bağlı olmuşdur. Şirvan məktəbinə Şamaxıdan başqa, Mərəzə, Ağsu, Kürdəmir kimi şəhər və rayonlarda toxunan xalçalar aiddir. Öz bədii və texniki xüsusiyyətləri ilə oxşar olan Salyan xalçaları da Şirvan xalçaçılıq məktəbinə daxildir. Bu məktəb özündə 25 kompozisiyanı cəmləşdirir. Şirvan xalçaları mürəkkəb təsvirləri ilə və çoxlu miqdarda insan, quş, məişət təsvirləri ilə xarakterizə olunur.

Sizə təqdim etdiyimiz «Cəmcəmli» xalçası Şamaxının eyniadlı kəndinin adı ilə adlandırılır. Bu xalçalar Şirvan zonasının əksər xalçaçılıq məntəqələrində, o cümlədən Mərəzədə, Şamaxıda, Qəbələdə, İsmayıllıda və digər rayonlarda istehsal olunur. Bəzi qocaman ustalar bu xalçanı «Cəmli-Zeyvə» adlandırırlar. «Cəmcəmli» xalçalarında uzunluq və en boyunca ilmələrin sıxlığı mütənasib deyil (hər desimetrdə 35-45 ilmə). Ona görə də göllər şaquli ox boyunca uzanmışdır. «Cəmcəmli» xalçaları böyük ölçüdə olmur. Onların üzərində iki-üç göl yerləşir. Uzunsov xalçalarda isə bir neçə göl olur.

## Tarixi abidələr



- ***Gülüstan qalası (VIII-XV əsrlər).*** Bu qalada Şirvanşah Şahrux İran qoşunlarının hücumunu mərdliklə dəf etmişdir. Qalanın içində Şirvanşahın sarayı və unikal su təchizatı sistemi salamat qalmışdır. Buradakı gizli su kəməri müdafiə istehkamlarını su ilə təchiz edirmiş. Suyu saxlamaq üçün nəzərdə tutulan daş çarhovuzlar və su qülləsi salamat qalmışdır.
- ***Cümə məscidi (VIII-X əsrlər);***
- ***Qalayi-Buqurt qalası (XII-XVI əsrlər).***
- ***Eyni adlı dağ kəndinin yaxınlığında yerləşən bu qala sanki sal qayaya yapışmışdır);***
- ***Pirmərdəkan türbəsi (XIII-XIV əsrlər);***
- ***Şahxəndan türbəsi (XVII əsr);***
- ***Yeddi Günbəz Kompleksi (7 türbədən ibarətdir - XVIII əsr).***

## Müdriklər deyib ki...



***«Təhsil xəzinədir, əmək onun açarı».***

***Seyid Əzim Şirvani (1835-1888)***

Səhifəni **Məti OSMANOĞLU** aparır | *osmanogm@yahoo.com*